F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Şəhərsalmanın Tarixi Təkamülü və Müasir Çağırışlar

Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi münasibətilə kütləvi oxucular üçün hazırlanmış metodik vəsait

Bakı – 2026

**Tərtibçi:** **Aynurə Əliyeva**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Şəhərsalmanın Tarixi Təkamülü və Müasir Çağırışlar -** Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi münasibətilə kütləvi oxucular üçün hazırlanmış metodik vəsait / F.Köçərli adına Respublika Uşaq Kitabxanası. – Bakı, 2026. – 42s.

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2026**

**Azərbaycan Respublikasında 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycanda şəhərsalma və memarlıq ənənələrinin çoxəsrlik zəngin bir keçmişi vardır. İpək Yolu üzərində yerləşən və mühüm ticarət, sənətkarlıq, mədəniyyət mərkəzləri kimi Şərq ölkələri ilə sıx iqtisadi, siyasi və mədəni əlaqələr quran iri şəhərlərimizin özünəməxsus simasının formalaşmasında qiymətli memarlıq abidələri müstəsna rol oynamışdır.

Azərbaycan şəhərsalma və memarlıq sənətinin bariz nümunələri olub daim yüksək inkişaf səviyyəsinə görə seçilən tarixi şəhərlərimiz ötən dövrlərin memarlıq tendensiyalarına uyğun böyüyüb genişlənməklə bərabər, yerli mədəniyyətin əsas xüsusiyyətlərini qoruyub saxlamışdır.

Bu gün ölkə ərazisində dövlət tərəfindən mühafizə olunan müdafiə qalaları, karvansaralar, məscid, məbəd və türbələr milli memarlığın parlaq ənənələrini əks etdirir. Bədii-memarlıq həllinin kamilliyi baxımından iftixar hissi doğuran dünya əhəmiyyətli tarix və mədəniyyət abidələrindən Möminə xatun türbəsi, Xudafərin körpüsü, “Atəşgah” kompleksi və digər bu kimi misilsiz nümunələr Azərbaycanın memarlığının rəmzlərinə çevrilmişdir.

UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş nadir sərvətlərimiz – qədim və orta əsrlərin şəhər mədəniyyətini özündə təcəssüm etdirən İçərişəhər və Şirvanşahlar sarayı kompleksi, əzəmətli ruhunu indiyədək qoruyan Qız Qalası, Şəkinin tarixi mərkəzi və Xan sarayı Azərbaycan şəhərsalma və memarlıq sənətinin dünya inciləri sırasında layiqli yer tutan yadigarlarıdır.

900 illiyi UNESCO çərçivəsində yubileyləri keçirilən böyük şəxsiyyətlər siyahısına daxil olunan qüdrətli sənətkar Əcəmi Naxçıvaninin Azərbaycan və Yaxın Şərq ölkələrinin orta əsrlər memarlığına güclü təsir göstərmiş yaradıcılığı dövrün memarlıq məktəbinin ən yüksək zirvəsidir.

Azərbaycan şəhərlərinin planlaşdırma quruluşunda və memarlıq tərzində artıq XIX əsrin ortalarına doğru müəyyən dəyişikliklər öz əksini tapmışdır. Sürətlə sənayeləşən Bakı şəhəri Şərq və Qərb memarlığının sintezində qədimliklə müasirliyin vəhdətindəki təkrarsız görkəmini məhz həmin vaxtlardan almağa başlamışdır.

Azərbaycan Respublikasında şəhərsalma və memarlıq fəaliyyətində milli ənənələrdən yaradıcı şəkildə istifadə olunmasına XX əsrdə xüsusi diqqət yetirilmişdir. Bu dövrdə bir sıra şəhərlər yenidən qurulmuş və onların əvvəlki siması dəyişmiş, bölgələrdə şəhərlərin planlaşdırılması önə çəkilmişdir. İki görkəmli memarın – Mikayıl Hüseynovun və Sadıq Dadaşovun fəaliyyətinin aparıcı yer

tutduğu həmin dövr milli ənənələr zəminində yeni memarlıq üslubunun yaradılması ilə səciyyələnir.

Ümummilli Lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illər Azərbaycan şəhərsalma və memarlığının inkişafında xüsusi mərhələ təşkil edir. Tarixən təşəkkül tapmış Azərbaycan şəhərlərinin və bütöv şəhərsalma sistemlərinin qorunması ilə bağlı bu illərdə Ulu Öndərin təşəbbüsü əsasında vacib qərarlar qəbul edilmiş, tədbirlər həyata keçirilmiş, şəhərlərdə memarlıq abidələrinin bərpası üzrə planlı iş aparılmış, memarlıq və şəhərsalma fəaliyyətinin davamlılığını təmin edən institusional təsisatlar qurulmuşdur.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra şəhər quruculuğu sahəsindəki yeni təzahürlər ölkədə inşa edilən monumental komplekslərin memarlıq həllində özünü qabarıq büruzə vermişdir. Ötən müddətdə dövrün qabaqcıl yanaşmalarını və milli təcrübələri əks etdirən layihələrin gerçəkləşdirilməsi sayəsində şəhərsalma sənətinin yüksək mənəvi-estetik təsir gücünə malik orijinal nümunələri yaradılmışdır. Mövcud möhtəşəm binalar sırasına daimi yeniləşmə rəmzi olan Heydər Əliyev Mərkəzi, Alov qüllələri kimi modern üslublu unikal memarlıq abidələrinin və Ağ şəhər kompleksinin əlavə edilməsi ilə paytaxtın mənzərəsi daha da zənginləşmiş, regionların memarlıq siması xeyli dəyişərək yeni şəkil almışdır.

Bu gün də Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf strategiyasında paytaxt və regionların tarazlı inkişafının təmin edilməsi və dayanıqlı məskunlaşmanın təşviqi, Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinə uyğunluqlar təsbit edilməklə, memarlıq və şəhərsalma fəaliyyətinin prioritet istiqamətləri olaraq müəyyənləşdirilmişdir.

Ermənistanın işğal etdiyi və otuz il ərzində viran qoyduğu ərazilərimizdə 44 günlük Vətən müharibəsindəki Zəfərin ardınca innovativ yanaşmaların tətbiqi ilə həyatı yenidən canlandıran genişmiqyaslı bərpa-quruculuq işləri Azərbaycan dövlətinin memarlıq və şəhərsalmaya müfəssəl baxışını aydın nümayiş etdirir. Böyük Qayıdışa dair I Dövlət Proqramına müvafiq qaydada "yaşıl enerji" zonası elan edilmiş bu ərazilərdə 2020–2025-ci illərdə – dünya memarlıq-inşaat təcrübəsində az rast gəlinən qısa bir müddətdə 100-dən artıq yaşayış məntəqəsi, o cümlədən 12 şəhər üzrə planlaşdırma sənədləri hazırlanmış və quruculuq işlərinə başlanılmışdır. Azərbaycanın mədəniyyət paytaxtı, xalqımızın qürur mənbəyi Şuşa şəhərinin əvvəlki memarlıq mühiti və əsl tarixi siması bərpa edilməklə dirçəldilməsi isə milli iradənin təzahürüdür.

Ölkəmiz iqlim dəyişmələri və şəhərsalma ilə əlaqədar qlobal çağırışların həllində, innovativ yanaşmaların formalaşmasında etibarlı tərəfdaş kimi tanınır. BMT-nin

Məskunlaşma Proqramı ("UN-Habitat") ilə birgə təşəbbüslər və bu çərçivədə memarların bir araya gəldiyi milli şəhərsalma forumları Azərbaycanın beynəlxalq tərəfdaşlarla ortaq fəaliyyətinin uğurlu nümunəsidir. BMT-nin Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) 2026-cı ildə Bakı şəhərində keçirilməsi qərarı Azərbaycanın dayanıqlı şəhərsalma proseslərində artan rolunu göstərir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanın çoxəsrlik tarixə malik şəhərsalma və memarlıq mədəniyyəti ənənələrinin yaşadılması, eləcə də ölkədə bu sahədə yeni çağırışlara cavab verən mütərəqqi yanaşmaların təşviqi və tətbiqinin genişləndirilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2026-cı il "Şəhərsalma və Memarlıq İli" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 dekabr 2025-ci il

**Qədim şəhərlərin yaranması və şəhərsalmanın ilkin tətbiqi**

İnsan cəmiyyətinin inkişaf tarixində şəhərlərin yaranması mühüm sivilizasiya mərhələsi kimi qiymətləndirilir. Köçəri həyat tərzindən oturaq həyata keçid, əkinçiliyin və maldarlığın inkişafı, ticarət yollarının formalaşması və ictimai münasibətlərin mürəkkəbləşməsi şəhərlərin təşəkkülünü zəruri etmişdir. İlk şəhərlər təkcə yaşayış məkanı deyil, həm də iqtisadi, dini, inzibati və mədəni mərkəz funksiyasını daşıyırdı.

Tarixi mənbələr göstərir ki, eramızdan əvvəl IV–III minilliklərdə Mesopotamiya ərazisində Ur, Uruk, Babil kimi şəhərlər formalaşmışdı. Bu şəhərlər artıq planlı şəkildə salınır, ətrafı müdafiə divarları ilə əhatə olunur, mərkəzində isə məbədlər və inzibati binalar yerləşdirilirdi. Küçələr müəyyən istiqamət üzrə salınır, yaşayış evləri isə sosial təbəqələşməyə uyğun qurulurdu. Bu faktlar göstərir ki, şəhərsalma işi ilkin mərhələdən etibarən təsadüfi deyil, müəyyən qayda və prinsiplərə əsaslanırdı.

Qədim Misirdə şəhərlər Nil çayı boyunca salınırdı və su ehtiyatının düzgün bölüşdürülməsi əsas planlaşdırma meyarı idi. Misir memarlığında monumental tikililər – piramidalar, məbədlər və saray kompleksləri şəhərin mərkəzi strukturunu təşkil edirdi. Bu isə şəhərsalmanın dini və siyasi hakimiyyətlə sıx bağlı olduğunu göstərirdi.

Qədim Yunanıstanda şəhərsalma daha sistemli xarakter aldı. Miletli Hippodam tərəfindən irəli sürülən "torşəkilli plan" (şahmatvari küçə sistemi) şəhərlərin rasional və nizamlı qurulmasına imkan yaratdı. Küçələrin düz xətlər üzrə salınması, ictimai meydanların – aqoraların yaradılması, inzibati və yaşayış zonalarının ayrılması şəhərsalma tarixində mühüm yenilik hesab olunur. Bu model sonralar Roma şəhərsalmasında daha da inkişaf etdirildi. Romalılar su kəmərləri, kanalizasiya sistemləri, yollar və forumlar inşa etməklə şəhər infrastrukturu anlayışını formalaşdırdılar.

Şərq şəhərsalma ənənələri də zəngin və özünəməxsus idi. Orta əsr İslam şəhərlərində mərkəzdə məscid və bazar yerləşir, yaşayış məhəllələri isə dar, kölgəli küçələr boyunca qurulurdu. Bu planlaşdırma həm iqlim şəraitinə, həm də sosial-mədəni dəyərlərə uyğun idi. Şəhərlər müdafiə divarları ilə əhatələnir, darvazalar vasitəsilə idarə olunurdu. Azərbaycan ərazisində qədim Qəbələ, Bərdə, Naxçıvan, Şamaxı kimi şəhərlər də bu urbanistik ənənələrin nümunəsi sayılır.

Beləliklə, qədim şəhərlərin yaranması insanın məkan üzərində şüurlu idarəetmə bacarığının nəticəsi idi. Şəhərsalma işi zaman keçdikcə daha da təkmilləşmiş, memarlıq, mühəndislik və sosial təşkilatlanma ilə vəhdət təşkil etmişdir. Qədim dövrlərdən başlayaraq şəhər yalnız fiziki məkan deyil, həm də sivilizasiyanın

güzgüsü olmuşdur. Bu gün müasir urbanistika prinsipləri tətbiq olunsa da, onların təməlində məhz minilliklər boyu formalaşmış şəhərsalma təcrübəsi dayanır.

2026-cı il “Şəhərsalma və Memarlıq İli” elan edilib!

2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsi təkcə bir təqvim qərarı deyil, dövlətin inkişaf strategiyasında məkan mədəniyyətinə, estetik düşüncəyə və dayanıqlı urbanistik siyasətə verilən yüksək dəyərin rəmzidir. Bu təşəbbüs şəhərlərin sadəcə yaşayış məkanı deyil, həm də mədəniyyətin, iqtisadiyyatın, sosial münasibətlərin və milli kimliyin formalaşdığı canlı orqanizm kimi qəbul edildiyini nümayiş etdirir.

Müasir dövrdə şəhərsalma artıq yalnız bina və infrastruktur tikintisi ilə məhdudlaşmır; o, insan həyatının keyfiyyətini müəyyən edən əsas amillərdən birinə çevrilib. Rahat nəqliyyat sistemi, yaşıl zonaların genişləndirilməsi, tarixi-mədəni irsin qorunması, ekoloji balansın saxlanılması və innovativ memarlıq həlləri – bütün bunlar şəhərsalma siyasətinin ayrılmaz tərkib hissəsidir. “Şəhərsalma və Memarlıq İli”nin elan olunması isə bu sahədə sistemli yanaşmanın, elmi əsaslı planlaşdırmanın və estetik baxışın prioritetə çevrildiyini göstərir.

Xüsusilə son illər ölkədə aparılan genişmiqyaslı quruculuq və abadlıq işləri, işğaldan azad olunmuş ərazilərdə “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyalarının tətbiqi, müasir memarlıq üslubu ilə milli ornamentlərin sintezi şəhərsalma sahəsində yeni mərhələnin başlanğıcından xəbər verir. 2026-cı ilin bu sahəyə həsr olunması həm mövcud layihələrin dərinləşdirilməsi, həm də gələcək urbanistik inkişafın strateji istiqamətlərinin müəyyənləşdirilməsi baxımından mühüm platforma rolunu oynayacaq.

Bu il çərçivəsində şəhər mühitinin humanistləşdirilməsi, ictimai məkanların funksionallığının artırılması, ekoloji davamlılığın təmin edilməsi və memarlıq irsinin qorunması kimi məsələlərin geniş müzakirə ediləcəyi gözlənilir. Eyni zamanda, memarların, şəhərsalma mütəxəssislərinin, urbanistlərin və ictimaiyyətin iştirakı ilə keçiriləcək tədbirlər bu sahədə ictimai şüurun formalaşmasına və estetik düşüncə tərzinin inkişafına töhfə verəcək.

Beləliklə, “Şəhərsalma və Memarlıq İli” yalnız fiziki məkanların yenilənməsi deyil, həm də düşüncə məkanının genişlənməsi, şəhər mədəniyyətinin daha müasir və daha dayanıqlı əsaslar üzərində qurulması istiqamətində atılmış strateji addım kimi dəyərləndirilə bilər. Bu qərar gələcəyin şəhərlərini bugünün baxışı ilə deyil, sabahın tələbləri ilə formalaşdırmaq iradəsinin ifadəsidir.

**Şəhərsalma və memarlıq anlayışı nədir?**

Şəhərsalma insanların yaşaması, işləməsi və sosial fəaliyyət göstərməsi üçün şəhər və yaşayış məkanlarının planlı şəkildə təşkili və inkişaf etdirilməsi prosesidir. Bu sahə ərazilərin funksional bölgüsünü (yaşayış, sənaye, istirahət, ictimai zonalar), nəqliyyat sistemini, mühəndis-kommunikasiya xətlərini, yaşıllıq sahələrini və infrastrukturun digər elementlərini kompleks şəkildə planlaşdırır.

Şəhərsalmanın əsas məqsədi insanların rahat, təhlükəsiz, ekoloji baxımdan sağlam və sosial cəhətdən balanslı mühitdə yaşamasını təmin etməkdir. O, yalnız binaların tikintisi deyil, bütöv şəhər məkanının strateji və uzunmüddətli inkişaf modelinin hazırlanması deməkdir. Müasir şəhərsalma davamlılıq, estetik uyğunluq və sosial ədalət prinsiplərinə əsaslanır.

Memarlıq isə bina və qurğuların layihələndirilməsi və inşası ilə bağlı sənət və elmdir. Memarlıq funksionallıqla estetikanın vəhdətidir. Memar yalnız divar və dam qurmaqla kifayətlənmir; o, məkanın ruhunu, insanın psixoloji rahatlığını, tarixi və mədəni konteksti nəzərə alaraq layihə yaradır.

Memarlıq fərdi tikililərin – yaşayış evlərinin, ictimai binaların, abidələrin – bədii və texniki həllini təmin etdiyi halda, şəhərsalma bu tikililərin bir-biri ilə əlaqəsini və bütöv şəhər sistemində yerini müəyyən edir.

Sadə dillə desək:

Memarlıq – ayrı-ayrı binaların sənəti və layihələndirilməsidir.

Şəhərsalma – həmin binaların və məkanların bütöv şəhər mühitində planlı təşkilidir.

Hər iki anlayış bir-birini tamamlayır və birlikdə insan həyatının fiziki və estetik mühitini formalaşdırır.

**Şəhərsalma və Memarlıq Anlayışı: Tarixi və Müasir Perspektiv**

Şəhərsalma və memarlıq insan mədəniyyətinin formalaşmasında, cəmiyyətin sosial, iqtisadi və estetik inkişafında əsas rol oynayan sahələrdir. Bu anlayışlar təkcə fiziki məkanın təşkili ilə məhdudlaşmır, eyni zamanda insan həyatının keyfiyyətini, cəmiyyətin mədəni səviyyəsini və şəhər mühitinin dayanıqlılığını müəyyən edir.

1. Şəhərsalmanın tarixi kökləri
   Şəhərsalma anlayışı insan sivilizasiyasının ilk mərhələlərinə gedib çıxır. Arxeoloji və tarixi mənbələr göstərir ki, eramızdan əvvəl IV–III minilliklərdə Mesopotamiya, Misir və Hindistan çay hövzələrində ilk şəhərlər formalaşmışdır.

Mesopotamiya şəhərləri (Uruk, Ur, Babil) məkanın planlı şəkildə təşkilinin ilk nümunələridir. Şəhərlər müdafiə divarları ilə əhatə olunmuş, mərkəzində məbədlər və inzibati binalar yerləşdirilmişdir. Bu, şəhərsalmanın yalnız yaşayış deyil, həm də siyasi və dini məqsədləri qarşıladığını göstərir.

Qədim Misir şəhərləri Nil çayının sahillərində yerləşirdi və su ehtiyatının düzgün bölgüsü planlaşdırmanın əsas prinsipi idi. Piramidalar və məbədlər şəhərin mərkəzi nöqtəsini təşkil edir, memarlıq və şəhərsalma bir-birinə inteqrasiya olunurdu.

Qədim Yunan şəhərləri (Milet, Atena) Hippodam tərəfindən irəli sürülən "şahmatvari plan"la diqqət çəkir. Küçələrin düz xətlər üzrə salınması, ictimai meydanların (aqoraların) yaradılması, inzibati və yaşayış zonalarının ayrılması şəhərsalmanın elmi əsaslarını formalaşdırırdı.

Roma şəhərləri isə kanalizasiya sistemləri, su kəmərləri, forumlar və yollar vasitəsilə şəhərsalmanı daha funksional və sistemli hala gətirdi.

2. Memarlığın tarixi və funksiyası

Memarlıq təkcə bina tikmək sənəti deyil, həm də estetik və funksional tələbləri birləşdirən bir elmdir. Qədim dövrlərdə memarlıq dini, siyasi və ictimai funksiyalarla sıx bağlı idi:

Qədim Misir memarlığı monumental tikililər və piramidalar üzərində qurulmuşdu. Memarlar həm texniki, həm də dini konsepsiyanı nəzərə alırdılar.

Yunan memarlığı klassik nizam və simmetriya üzərində qurulmuş, sütun sistemləri (Doric, Ionic, Corinthian) ilə estetik mükəmməllik nümayiş etdirirdi.

Roma memarlığı mühəndislik və estetik prinsipləri birləşdirərək akveduklar, teatrlar və bazilikalar kimi kompleks infrastrukturu yaradırdı.

Müasir dövrdə memarlıq funksional, ekologiya yönümlü və sosial baxımdan balanslı tikililərin yaradılmasını əhatə edir. Memar bina və ya kompleksin həm praktiki, həm də bədii aspektlərini nəzərə alaraq layihələndirmə aparır.

3. Şəhərsalma və memarlığın müasir aspektləri

Müasir şəhərsalma yalnız binaların yerləşdirilməsi deyil, bütöv urbanistik sistemin qurulmasıdır. Buraya yaşayış zonalarının, sənaye və ticarət ərazilərinin, ictimai məkanların və yaşıl zonaların planlı yerləşdirilməsi daxildir. Müasir şəhərsalmanın əsas prinsipləri:

Davamlılıq: Enerji və resursların səmərəli istifadəsi, ekoloji tarazlığın qorunması.

Fəaliyyətlərin funksional bölgüsü: Yaşayış, sənaye, ticarət və ictimai sahələrin optimal yerləşdirilməsi.

İctimai məkanların humanistləşdirilməsi: Parklar, meydanlar və istirahət zonaları insanların sosial inteqrasiyasını gücləndirir.

Təhlükəsizlik və infrastruktura: Yollar, su təchizatı, kanalizasiya və nəqliyyat sistemlərinin planlı inkişafı.

Memarlıq isə şəhərsalmanı tamamlayır, binaların həm funksional, həm də estetik və sosial uyğunluğunu təmin edir. Modern memarlıqda binalar yalnız yaşayış və ya iş məkanı kimi deyil, həm də şəhərin simvolu, mədəniyyətin və texnologiyanın göstəricisi kimi nəzərdən keçirilir.

4. Azərbaycanın şəhərsalma və memarlıq təcrübəsi

Azərbaycanın qədim şəhərləri – Qəbələ, Şamaxı, Bərdə, Naxçıvan – şəhərsalma tarixində maraqlı nümunələrdir. Burada mərkəzdə məscid və bazar yerləşir, yaşayış məhəllələri isə dar və kölgəli küçələr boyunca planlaşdırılırdı. Orta əsrlər şəhərsalması həm müdafiə, həm də sosial-mədəni funksiyaları nəzərə alırdı. Müasir dövrdə isə Bakı və digər iri şəhərlərdə "ağıllı şəhər" layihələri, ictimai məkanların abadlaşdırılması və memarlıq innovasiyaları şəhərsalmanın yeni mərhələsini təmsil edir.

Şəhərsalma və memarlıq insan mədəniyyətinin inkişafında ayrılmaz əlaqəyə malikdir. Qədimdən bu günə qədər şəhərsalma cəmiyyətin fiziki və sosial mühitini, memarlıq isə estetik və funksional məkânlarını müəyyən etmişdir. Müasir dövrdə bu iki sahə ekoloji davamlılıq, sosial ədalət və texnoloji irəliləyiş prinsipləri üzərində birləşərək insan həyatının keyfiyyətini artırır və şəhər mühitini həm yaşayış, həm də mədəniyyət məkanı kimi zənginləşdirir.

**2026-cı il "Şəhərsalma və Memarlıq İli"** ilə əlaqədar kitabxanada sərgi təşkil olunur. Sərgidə Şəhərsalma və Memarlıqdan bəhs edən ədəbiyyatla dövrü mətbuat materialları qoyulur. Həmçinin sərgidə2026-cı il "Şəhərsalma və Memarlıq İli" nə dair görkəmli şəxsiyyətin ilə bağlı söylədiyi kəlamlara yer verilir. Sərgiyə müxtəlif başlıqlar, "Daşda yazılan tarix, şəhərdə yaşayan yaddaş", "Qədim divarlardan ağıllı şəhərlərə uzanan yol", "Şəhər — zamanın memarı, insanın əsəri", "Minilliklərin kölgəsində doğulan şəhərlər", "Daş, məkan və dövlətçilik düşüncəsi", "Keçmişin nəfəsi, gələcəyin şəhəri", "Şəhər: yaddaşın daşlaşmış forması" "Qalalardan forumlara, bağlardan bulud texnologiyalarına", "Məkanın dili və millətin memarlıq taleyi", "Bir şəhərin hekayəsi: tarix, memarlıq və gələcək", "Kərpicdən

konsepsiyaya: urban ruhun təkamülü", "Şəhər — mədəniyyətin görünən üzü", "Zamanın izləri, memarın nəfəsi", "Parkdan paytaxta: bir məkanın taleyi", "Yaradan xalqın şəhərləri" verilə bilər.

Bununla yanaşı kitabxanada 2026-cı il "Şəhərsalma və Memarlıq İli" ilə əlaqədar bir sıra tədbirlər keçirilə bilər. Bunlardan biri də "Konfrans" dır. Kitabxanada yuxarı sinif şagirdlərinin iştirakı ilə ***2026-cı il "Şəhərsalma və Memarlıq İli"*** bağlı konfrans da təşkil etmək mümkündür. Konfransdan əvvəl onun proqramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edərək qonaqların, tarixçilərin, siyasətçilərin və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi dəqiq vaxt məkan və zaman qeyd olunur. Konfrans zamanı 2026-cı il "Şəhərsalma və Memarlıq İli" haqqında kitab və digər yazılar yazmış jurnalist, yazıçı və şairlərin çıxışları dinlənilir. Oxucu konfransının planını sizə təqdim edirik:

**Ktabxanaçı:** Azərbaycanın şəhərsalma və memarlıq mədəniyyəti təkcə daş və tikililərdən ibarət fiziki irs deyil, xalqın tarixi təcrübəsinin, dünyagörüşünün, estetik zövqünün və dövlətçilik ənənəsinin maddiləşmiş ifadəsidir. Bu irs əsrlər boyu formalaşaraq təkamül yolu keçmiş, müxtəlif sivilizasiyalarla təmasda zənginləşmiş və milli kimliyin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Məhz bu baxımdan Azərbaycanda şəhərsalma və memarlıq tarixini keçmişin bədii irsi olmaqla bərabər, dövlətin formalaşma və inkişaf prosesinin mühüm komponenti kimi dəyərləndirmək zəruridir.

Azərbaycanın coğrafi mövqeyi tarixən onun şəhərlərinin taleyini müəyyənləşdirən əsas amillərdən biri olmuşdur. Böyük İpək Yolu üzərində yerləşən ölkə ərazisi ticarət, sənətkarlıq, mədəniyyət və ideyaların mübadiləsi üçün açıq məkan rolunu oynamış, bu isə şəhərlərin planlaşdırma quruluşunda və memarlıq simasında özünəməxsus izlər buraxmışdır. Gəncə, Naxçıvan, Şamaxı, Təbriz, Bakı kimi iri şəhərlər iqtisadi mərkəzlər olmaqla yanaşı, həm də siyasi qərarların qəbul edildiyi, elmi və dini düşüncənin formalaşdığı məkanlar kimi inkişaf etmişdir. Bu şəhərlərin böyüməsi spontan deyil, dövrün sosial-iqtisadi tələblərinə uyğun şəkildə baş vermiş, lakin bütün mərhələlərdə yerli mədəniyyətin əsas xüsusiyyətləri qorunmuşdur. Şəhərsalma strukturlarında məhəllə sistemi, ictimai məkanların funksional bölgüsü, dini və mülki tikililərin qarşılıqlı əlaqəsi Azərbaycan şəhər mədəniyyətinin xarakterik cəhətlərini təşkil etmişdir.

Bu gün ölkə ərazisində dövlət tərəfindən mühafizə olunan qalalar, karvansaralar, məscidlər, məbədlər və türbələr Azərbaycan memarlıq məktəbinin davamlılığını və estetik kamilliyini sübut edir. Möminə xatun türbəsi, Xudafərin körpüləri, Atəşgah məbədi kimi abidələr təkcə mühəndislik bacarığının deyil, həm də simvolik

düşüncənin, fəlsəfi yanaşmanın məhsuludur. Bu tikililər zamanın sınağından çıxaraq milli memarlığın rəmzinə çevrilmişdir. Xüsusi qeyd olunmalıdır ki, Azərbaycanın şəhərsalma irsi beynəlxalq səviyyədə də tanınmışdır. İçərişəhər və Şirvanşahlar Sarayı kompleksi, Qız Qalası, Şəkinin tarixi mərkəzi və Xan sarayı təkcə milli deyil, ümumbəşəri dəyər kimi də qəbul edilir. Bu abidələr qədim və orta əsr şəhər mədəniyyətinin canlı nümunələri olmaqla yanaşı, şəhərsalmanın tarixi mərhələlərini ardıcıl şəkildə əks etdirir.

Azərbaycan memarlıq tarixində XII əsr xüsusi yer tutur. Bu dövrün ən parlaq simalarından biri olan Əcəmi Naxçıvani yalnız böyük sənətkar deyil, eyni zamanda, memarlıq məktəbi yaradan şəxsiyyət olmuşdur. Onun yaradıcılığı Azərbaycanla məhdudlaşmamış, Yaxın Şərq ölkələrinin memarlıq inkişafına ciddi təsir göstərmişdir. Əcəmi Naxçıvaninin əsərlərində funksionallıq, simvolizm və estetik harmoniya vəhdət təşkil edir ki, bu da orta əsr memarlığının ən yüksək mərhələsi kimi dəyərləndirilir. Çünki Azərbaycan şəhərsalma ənənəsi tarixən yalnız praktik ehtiyaclara deyil, ideya və mənəvi dəyərlərə əsaslanmışdır. Məhz buna görə də memarlıq irsi nəsillərarası yaddaşın daşıyıcısına çevrilmişdir.

**II İştirakçı: XIX əsr: Şərq və Qərb arasında yeni şəhər modeli**

XIX əsrin ortalarından etibarən Azərbaycanın şəhərsalma tarixində keyfiyyətcə yeni mərhələ başlanmışdır. Xüsusilə Bakının sənayeləşməsi şəhər planlaşdırmasına yeni tələblər gətirmişdir. Neft sənayesinin inkişafı fonunda Bakı tədricən Şərq və Qərb memarlıq üslublarının sintez olunduğu nadir şəhər modelinə çevrilmişdir. Bu dövrdə şəhərin tarixi mərkəzi ilə yeni salınan məhəllələr arasında funksional və estetik balans formalaşmış, qədimliklə müasirlik eyni urban məkanda birləşmişdir. Bu proses Azərbaycan şəhərlərinin fiziki genişlənməsi ilə bərabər, həm də şəhər idarəçiliyi və planlaşdırma düşüncəsinin dəyişməsi demək idi.

Azərbaycan şəhərsalma və memarlıq irsinin XX əsrdən etibarən keçdiyi yol təsadüfi proseslərin deyil, dövlət düşüncəsinin və siyasi iradənin nəticəsi kimi formalaşmışdır. Əgər əvvəlki dövrlərdə şəhərlər əsasən tarixi, ticarət və mədəni zərurətlərin məhsulu idisə, XX əsrdən başlayaraq şəhərsalma artıq idarə olunan, planlı və strateji sahəyə çevrilmişdir. Bu mərhələdə şəhər mühiti yalnız estetik və funksional baxımdan deyil, sosial rifahın, milli kimliyin və dövlət təhlükəsizliyinin elementi kimi də dərk olunmağa başlamışdır.

Şəhərsalma və memarlıq fəaliyyəti tədricən dövlət nəzarətinə keçdi, planlaşdırma institutları yaradıldı, regional siyasətin sistemli şəkildə həyata keçirilməsinə başlanıldı. Bu dövrdə bir sıra şəhərlərin yenidən qurulması, yeni yaşayış massivlərinin salınması və ictimai məkanların formalaşdırılması milli memarlıq ənənələrinin qorunması şərti ilə reallaşdırıldı. Mikayıl Hüseynov və Sadıq Dadaşov

kimi görkəmli memarların fəaliyyəti həmin mərhələnin ideoloji mahiyyətini aydın şəkildə əks etdirirdi. Onların yaradıcılığında milli ornamentika, tarixi memarlıq elementləri müasir funksional həllərlə sintez olunaraq, Azərbaycan şəhərlərinin simasında yeni, lakin köklərinə bağlı memarlıq üslubu formalaşdırdı.

**III İştirakçı: Heydər Əliyev dövrü: şəhərsalmanın dövlət strategiyasına çevrilməsi**

Azərbaycan şəhərsalma və memarlıq tarixində keyfiyyətcə yeni mərhələ ümummilli lider Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi illərlə bağlıdır. Bu dövrdə şəhərsalma ilk dəfə olaraq ayrıca sahə kimi deyil, dövlət quruculuğunun tərkib hissəsi kimi dəyərləndirildi. Tarixi şəhərlərin qorunması, memarlıq abidələrinin bərpası və yeni şəhərsalma layihələrinin milli ənənələrə uyğun həyata keçirilməsi məqsədilə mühüm qərarlar qəbul edildi. Heydər Əliyevin yanaşmasının əsas fərqi ondan ibarət idi ki, şəhər mühiti yalnız cari ehtiyacların deyil, gələcək nəsillərin maraqlarının daşıyıcısı kimi nəzərdən keçirilirdi. Məhz bu illərdə memarlıq və şəhərsalma fəaliyyətinin davamlılığını təmin edən institusional mexanizmlər yaradıldı, normativ-hüquqi baza möhkəmləndirildi, tarixi irsin qorunması dövlət siyasətinin prioritetinə çevrildi. Bu strategiya sonrakı dövrlər üçün möhkəm ideoloji və idarəetmə təməli formalaşdırdı.

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan şəhərlərinin memarlıq simasında yeni məzmun diqqət çəkdi. Bu mərhələdə inşa olunan monumental komplekslər ölkənin siyasi müstəqilliyini, iqtisadi potensialını və mədəni ambisiyalarını ifadə edən simvollara çevrildi. Heydər Əliyev Mərkəzi, Alov qüllələri, Ağ şəhər layihəsi kimi nümunələr paytaxtın memarlıq mənzərəsini keyfiyyətcə yeni səviyyəyə qaldırdı, eyni zamanda, müasir memarlıqla milli məkan anlayışının vəhdətini nümayiş etdirdi. Bu proses təkcə Bakını deyil, regionları da əhatə etdi. Şəhərlərin planlı inkişafı, infrastrukturun yenilənməsi və yaşayış mühitinin yaxşılaşdırılması ölkənin sosial-iqtisadi strategiyasının ayrılmaz hissəsinə çevrildi. Beləliklə, şəhərsalma və memarlıq fəaliyyəti sosial rifahın yüksəldilməsi ilə birbaşa əlaqələndirildi.

**IV İştirakçı: Postmünaqişə mərhələsi: bərpa, qayıdış və yeni şəhərsalma modeli**

44 günlük Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və yenidənqurma işləri Azərbaycan şəhərsalma siyasətinin müasir mərhələsini müəyyənləşdirən əsas amilə çevrildi. 30 il ərzində sistemli şəkildə dağıdılmış şəhər və kəndlərin yenidən qurulmasına texniki məsələ olmaqla bərabər, həm də tarixi ədalətin və milli iradənin bərpası kimi yanaşıldı.

Hazırda "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində bu ərazilərdə müasir planlaşdırma prinsiplərinə əsaslanan, "yaşıl enerji", "ağıllı" şəhər və kənd modellərini birləşdirən yeni yaşayış mühiti formalaşdırılır. Qısa müddət ərzində onlarla yaşayış məntəqəsi üzrə planlaşdırma sənədlərinin hazırlanması və Şuşa şəhərinin tarixi simasının bərpası Azərbaycanın şəhərsalma sahəsində artıq qlobal çağırışlara cavab verən praktiki təcrübə formalaşdırdığını göstərir.

2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi isə təsadüfi qərar deyil. Bu addım 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" ilə başlanan ideoloji xəttin məntiqi davamıdır. Dövlət bu qərarla göstərir ki, suverenlik yalnız siyasi və hüquqi kateqoriya deyil, eyni zamanda, məkanın, şəhərin və yaşayış mühitinin milli iradəyə uyğun qurulmasıdır. Bu təşəbbüs şəhərsalma və memarlığı milli kimliyin qorunması, mədəni irsin yaşadılması və dayanıqlı gələcəyin təmin edilməsi kontekstində birləşdirir. Şəhər mühiti sadəcə yaşayış sahəsi olmaqla yanaşı, sosial ədalətin, ekoloji tarazlığın və ictimai rifahın reallaşdığı məkan kimi təqdim olunur.

Azərbaycanın BMT-nin Məskunlaşma Proqramı ilə əməkdaşlığı, milli şəhərsalma forumlarının təşkili və 2026-cı ildə Dünya Şəhərsalma Forumunun (WUF-13) Bakıda keçirilməsi ölkənin qlobal şəhərsalma gündəliyində artan rolunu təsdiqləyir. Azərbaycan bu proseslərdə təcrübə təqdim edən və təşəbbüs irəli sürən tərəfdaş kimi çıxış edir. Beləliklə, Azərbaycanın şəhərsalma və memarlıq irsi tarixdən müasirliyə uzanan davamlı xətt təşkil edir. Bu xətt XX əsrdə dövlət planlaşdırmasına, müstəqillik dövründə milli identiklik və modernləşməyə, postmünaqişə mərhələsində isə bərpa və dayanıqlı inkişaf modelinə çevrilmişdir. 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi və WUF-13-ə ev sahibliyi isə bu uzun yolun məntiqi yekunu olmaqla yanaşı, həm də Azərbaycanın gələcək inkişaf strategiyasının mühüm ideoloji və praktiki dayağı kimi çıxış edir.

Azərbaycanın şəhərsalma və memarlıq mədəniyyəti təkcə daş və tikililərdən ibarət fiziki irs deyil, xalqın tarixi təcrübəsinin, dünyagörüşünün, estetik zövqünün və dövlətçilik ənənəsinin maddiləşmiş ifadəsidir. Bu irs əsrlər boyu formalaşaraq təkamül yolu keçmiş, müxtəlif sivilizasiyalarla təmasda zənginləşmiş və milli kimliyin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Məhz bu baxımdan Azərbaycanda şəhərsalma və memarlıq tarixini keçmişin bədii irsi olmaqla bərabər, dövlətin formalaşma və inkişaf prosesinin mühüm komponenti kimi dəyərləndirmək zəruridir.

Azərbaycanın coğrafi mövqeyi tarixən onun şəhərlərinin taleyini müəyyənləşdirən əsas amillərdən biri olmuşdur. Böyük İpək Yolu üzərində yerləşən ölkə ərazisi ticarət, sənətkarlıq, mədəniyyət və ideyaların mübadiləsi üçün açıq məkan rolunu

oynamış, bu isə şəhərlərin planlaşdırma quruluşunda və memarlıq simasında özünəməxsus izlər buraxmışdır. Gəncə, Naxçıvan, Şamaxı, Təbriz, Bakı kimi iri şəhərlər iqtisadi mərkəzlər olmaqla yanaşı, həm də siyasi qərarların qəbul edildiyi, elmi və dini düşüncənin formalaşdığı məkanlar kimi inkişaf etmişdir. Bu şəhərlərin böyüməsi spontan deyil, dövrün sosial-iqtisadi tələblərinə uyğun şəkildə baş vermiş, lakin bütün mərhələlərdə yerli mədəniyyətin əsas xüsusiyyətləri qorunmuşdur. Şəhərsalma strukturlarında məhəllə sistemi, ictimai məkanların funksional bölgüsü, dini və mülki tikililərin qarşılıqlı əlaqəsi Azərbaycan şəhər mədəniyyətinin xarakterik cəhətlərini təşkil etmişdir.

Bu gün ölkə ərazisində dövlət tərəfindən mühafizə olunan qalalar, karvansaralar, məscidlər, məbədlər və türbələr Azərbaycan memarlıq məktəbinin davamlılığını və estetik kamilliyini sübut edir. Möminə xatun türbəsi, Xudafərin körpüləri, Atəşgah məbədi kimi abidələr təkcə mühəndislik bacarığının deyil, həm də simvolik düşüncənin, fəlsəfi yanaşmanın məhsuludur. Bu tikililər zamanın sınağından çıxaraq milli memarlığın rəmzinə çevrilmişdir. Xüsusi qeyd olunmalıdır ki, Azərbaycanın şəhərsalma irsi beynəlxalq səviyyədə də tanınmışdır. İçərişəhər və Şirvanşahlar Sarayı kompleksi, Qız Qalası, Şəkinin tarixi mərkəzi və Xan sarayı təkcə milli deyil, ümumbəşəri dəyər kimi də qəbul edilir. Bu abidələr qədim və orta əsr şəhər mədəniyyətinin canlı nümunələri olmaqla yanaşı, şəhərsalmanın tarixi mərhələlərini ardıcıl şəkildə əks etdirir.

Azərbaycan memarlıq tarixində XII əsr xüsusi yer tutur. Bu dövrün ən parlaq simalarından biri olan Əcəmi Naxçıvani yalnız böyük sənətkar deyil, eyni zamanda, memarlıq məktəbi yaradan şəxsiyyət olmuşdur. Onun yaradıcılığı Azərbaycanla məhdudlaşmamış, Yaxın Şərq ölkələrinin memarlıq inkişafına ciddi təsir göstərmişdir. Əcəmi Naxçıvaninin əsərlərində funksionallıq, simvolizm və estetik harmoniya vəhdət təşkil edir ki, bu da orta əsr memarlığının ən yüksək mərhələsi kimi dəyərləndirilir. Çünki Azərbaycan şəhərsalma ənənəsi tarixən yalnız praktik ehtiyaclara deyil, ideya və mənəvi dəyərlərə əsaslanmışdır. Məhz buna görə də memarlıq irsi nəsillərarası yaddaşın daşıyıcısına çevrilmişdir.

*2026-cı il "Şəhərsalma və Memarlıq İli" ilə əlaqədar bir sıra tədbirlər keçirilə bilər. Bunlardan biri də "Konfrans" dır. Kitabxanada yuxarı sinif şagirdlərinin iştirakı ilə 2026-cı il "Şəhərsalma və Memarlıq İli" bağlı şeir müsabiqəsi keçirilə bilər. Bunun üçün kitabxanaçı məktəblilərə bu gün və müsabiqə haqqında məlumat verir. Məktəblilərə əlamətdar gün ilə bağlı şeirlər təqdim edilir və məktəblilər şeirlərlə tanış olurlar. Müəyyən olunmuş vaxtda şagirdlər kitabxanaya gəlirlər. Müsabiqəsini açıq elan edən kitabxanaçı 2026-cı il "Şəhərsalma və Memarlıq İli" haqqında qısa məlumat verir.*

**Kitabxanaçı:** Bütün zamanlarda şəhərsalma cəmiyyətin sosial, iqtisadi və mədəni inkişafını əks etdirən mühüm sahələrdən olub. İndi də davam edən proses nəqliyyat sistemlərinin səmərəli təşkili, ekoloji tarazlığın qorunması, ictimai məkanların əlçatanlığı və tarixi irsin saxlanılması kimi çoxşaxəli məsələləri əhatə edir. Bu baxımdan müasir şəhər planlaşdırılması həm iqtisadi, həm sosial, həm də ekoloji amillərin balanslı şəkildə nəzərə alınması tələbini qarşıya qoyur.

Şəhərlər hər bir ölkənin güzgüsüdür. Onların necə salınması, böyüməsi və idarə olunması həmin cəmiyyətin inkişaf səviyyəsini açıq şəkildə göstərir. Xaotik və plansız şəhər narahat cəmiyyətin, düşünülmüş və balanslı şəhər isə uzaqgörən yanaşmanın göstəricisidir. Şəhər mühiti insan həyatına birbaşa təsir edən səssiz, lakin güclü amildir. Bu mənada Azərbaycandakı şəhərsalma ilə dünya ölkələrində tətbiq olunan şəhərsalma modelləri arasında həm oxşar cəhətlər, həm də diqqətçəkən fərqlər mövcuddur. Qlobal hadisələr şəhərləri bir-birinə bənzətsə də, yerli reallıqlar onu tam eyniləşdirmir.

Azərbaycanda son illər bu istiqamətdə mühüm addımlar atılır. Xeyli sayda park salınması, şəhər mərkəzlərinin abadlaşdırılması və yeni nəqliyyat layihələri göstərir ki, ölkə şəhərsalma sahəsində qlobal trendlərə uyğunlaşmağa çalışır. Xüsusilə Bakı şəhərində aparılan yenidənqurma və abadlıq işləri dəyişikliklərin ən bariz nümunəsidir. Paytaxtda yeni bulvar zolağının istifadəyə verilməsi, piyada zonalarının

genişləndirilməsi, ictimai nəqliyyat infrastrukturunun yenilənməsi şəhər mühitinin daha yaşanılan hala gətirilməsinə xidmət edir. Bakı həm müasir memarlıq nümunələri, həm də tarixi şəhər simasını bir arada yaşatmağa çalışan şəhər kimi formalaşma mərhələsindədir.

Bununla belə bir sıra problemlər hələ də açıq şəkildə özünü göstərir. Artan avtomobil sayı və yol infrastrukturunun qeyd olunan artıma tam uyğunlaşmaması şəhərdə başgicəlləndirici tıxaclara meydan verir. İctimai nəqliyyatın inkişaf etdirilməsi məqsədilə atılan addımlara baxmayaraq, hələ də şəxsi avtomobildən asılılıq yüksək olaraq qalır. Xüsusilə pik saatlarda şəhərin əsas prospekt və küçələrində yaranan sıxlıq paytaxtın gündəlik həyat tempini xeyli ləngidir.

Digər mühüm problem bəzən sıx və plansız şəkildə tikilən çoxmərtəbəli yaşayış binalarıdır. Bu binaların sayının sürətlə artması bir çox ərazidə yaşıllıq sahələrinin yox olmasına, sosial infrastrukturun isə inkişaf tempinin azalmasına gətirib çıxarır. Uşaq bağçaları, məktəblər, dayanacaqlar və istirahət məkanları yeni salınan yaşayış massivlərinin ehtiyaclarını tam olaraq qarşılaya bilmir. Və bu vəziyyət şəhər mühitində rahatlıq anlayışını sual altına qoyur.

Bakıda müşahidə olunan  mənzərə şəhərsalmanın yalnız yerli deyil, eyni zamanda qlobal müzakirə mövzusu olduğunu göz önünə qoyur. Belə bir şəraitdə sual yaranır: dayanıqlı şəhərlərin formalaşmasında qərarverici mexanizmlər necə qurulmalıdır? Sual ətrafında aparılan müzakirələr bu günlər 13-cü Ümumdünya Şəhərsalma Forumuna (WUF13) həsr olunmuş "Parlamentlərin dayanıqlı şəhər inkişafında rolu" mövzusunda beynəlxalq tədbirdə öz əksini tapdı. Onlayn keçirilən tədbir dünyanın 30 ölkəsindən 32 parlament üzvünü bir araya gətirərək WUF13-ün əsas məqsəd və proqramları barədə məlumatlandırmaq və parlamentlərin forumdakı iştirakını təşviq etmək məqsədi daşıyırdı. Qeyd edək ki,  2026-cı ilin mayında "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri"  mövzusunda 13-cü Beynəlxalq Şəhərsalma Forumu keçiriləcək. Hökumət, akademiya, biznes və vətəndaş cəmiyyəti nümayəndələrini bir araya gətirərək şəhərlərin gələcəyinə dair qlobal dialoqa Bakı evsahibliyi edəcək.  Prezident İlham Əliyevin sərəncamı ilə 2026-cı ilin Azərbaycanda  "Şəhərsalma və Memarlıq İli" elan edilməsi də təbii ki, bu amilə bağlıdır.  Qlobal səviyyədə şəhərsalma təşəbbüslərində Azərbaycanın fəal iştirakı və evsahibliyi göstərir ki, ölkəmizdə şəhərsalmanın strateji inkişafı prioritet məsələlərdən biridir. Lakin yerli reallıqlar diktə edir ki, dünya şəhərlərində uzunmüddətli strategiyalarla həyata keçirilən planlaşdırma Azərbaycanda bəzən sürətli inkişafın kölgəsində qalır və planlı yanaşmanın tam reallaşmasına əngəl olur. Dünyanın başqa yerlərində isə  ölkələr fərqli şəhərsalmalarla  diqqət çəkirlər.

Avropa şəhərlərində, məsələn, Paris, Roma və Praqada planlaşdırma uzunmüddətli strategiyalar əsasında aparılır və tarixi irsin qorunması ön planda götürülür. Burada ictimai məkanların əlçatanlığı, piyada və velosiped infrastrukturunun inkişafı, "yaşıl zona"ların qorunması əsas prioritetlərdəndir. Avropada şəhərlər həm estetik, həm də sosial tarazlığı qoruyaraq yenilənir.

Avropanın şimal şəhərləri olan  Kopenhagen və Amsterdamda dayanıqlı şəhərsalma konsepsiyası tamamilə ekoloji yanaşma üzərində qurulub. Enerji səmərəliliyi, ictimai nəqliyyatın üstünlüyü və yaşıl məkanların genişləndirilməsi strateji hədəflərdir. Burada yeni tikililər və tarixi məkanlar arasında balans qorunur, planlaşdırma ictimaiyyətin iştirakı ilə aparılır.

Asiya şəhərlərindən olan Tokio və Sinqapura üz tutsaq  görərik ki, burada sürətli inkişaf planlı şəhərsalma ilə paralel gedir. Tokioda yüksək əhali sıxlığına baxmayaraq, nəqliyyat və sosial infrastruktura xüsusi diqqət yetirilir, Sinqapurda isə "yaşıl şəhər" konsepsiyası çərçivəsində parklar, yaşıllıq sahələri və su resursları diqqətlə qorunur.

Beləliklə, dünyada şəhərsalma təcrübəsi çoxşaxəlidir: bir tərəfdən tarixi irsin, ictimai və yaşıl məkanların balansını qorumaq, digər tərəfdən sürətli inkişaf və

modernizasiya arasında tarazlığı təmin etmək şərtdir. Başqa bir tərəfdən isə dünya təcrübəsində ictimaiyyətin iştirakının şəhərsalmada vacib olduğu diqqətlərdən qaçmır. Şəhər sakinlərinin rəyinin nəzərə alınması, açıq müzakirələr və şəffaf qərarvermə mexanizmləri şəhərlərin daha yaşanılan olmasına xidmət edir. Azərbaycanda isə bu proses hələ formalaşma mərhələsindədir. Buna baxmayaraq, cəmiyyətin şəhər mühitinə marağının artması gələcək üçün ümidverici tendensiyadır.

Göründüyü kimi, uğurlu şəhərsalma yalnız tikinti ilə ölçülmür. O, insanların həyat keyfiyyətini, ictimai məkanların əlçatanlığını, tarixi və ekoloji dəyərlərin qorunmasını, həmçinin uzunmüddətli strateji planlaşdırmanı əhatə etməlidir. Azərbaycanda şəhərsalmada potensial imkanlar və təkmilləşdirilməli sahələr mövcuddur. Bakı və digər şəhərlərimiz sürətli inkişaf fonunda bu balansı qorumağı öyrəndikcə həm yerli sakinlərin rifahı, həm də beynəlxalq səviyyədə şəhərsalma uğurları daha aydın görünəcək.

Kitabxanaçının dəyərli məlumatından sonra iştirakçılar ard-arda öz şeirlərini qiraətli şəkildə deməyə başlayırlar.

**I İştirakçı: Gözəl Bakı!   (Müşfiqə Bayramlı)**

Yüz il ömür sürəydim,
Bir gün xəstələnməyib.
Yazaydım, yaradaydım,
Şah nəğməni mən, Bakı.
Oxuyaydım hər yanda onu ürəkdən, Bakı.
Bakı, əziz şəhər, mehriban diyar!
Bakı, əziz şəhər, mehriban diyar,
Sinəndə boy atıb oldum bəxtiyar,
Səndə ilk eşqimin yadigarı var.
Sən mənim söhbətim, şərəfim, şöhrətim,
Tükənməz dövlətim, əzizimsən,
Gözəl, Bakı!

**II İştirakçı: Gəncə (Rəsul Rza)**

Bağlarında salxım-salxım təbrizi.
Buz kimidir Dördyolunun kəhrizi.
Göygölünün havasını udanlar
Ömrü boyu yaxın qoymaz pəhrizi.

Tarixdə var adın, Gəncəm, a Gəncəm!
İldən-ilə sən boy atdın, a Gəncəm!
Qarşısında əyməmisən başını
Ömrün boyu heç bir yadın, a Gəncəm!

Nəğmələrin ya şux olsun, ya həzin;
Alovludur Qoşqarının təpəsi.
İgidlərin nərəsindən bölünüb
parça-parça qayaları Kəpəzin.

Gecə-gündüz canlı qəlbin döyünür.
Ellər bu gün zəfərinlə öyünür.
Neçə qurban bahasına qazandın
Şöhrətindən xəbər verən bu günü.

Sorağın var yüz ölkədə, yüz eldə.
Məhəbbətin neçə-neçə könüldə.
Dil yorulmaz tərifini deməkdən
Bundan sonra ömür etsəm yüz il də.

**III İştirakçı: Mənim Naxçıvanım ( Məmməd Araz)**

Sinəmdə o yerin dağ havasıdır,
Qaynar bulaqları qaynar qanımda.
Mənim ürəyimin bir parçasıdır
Doğma Şahbuzum da, Naxçıvanım da.

Bir bağban əli var təbiətində-
Dağda çiçəyi bol, bağda barı bol.
O, yaxın dostudur təbiətin də
Yayda günəşi bol, qışda qarı bol.

Mən burdan baxıram bütün aləmə,
Bu yerin qışı da yazımdır mənim.
Axan çaylarına lal sudur demə,
Onlar min nəğməli sazımdır mənim.

Seyr elə Arazı bir yaz səhəri,

Bir tarix dil açır onun səsində.
Bu yerin min dərdi, min də kədəri
Yazılmış Atabəy məqbərəsində.

Yaxşı bax, hər qara  qayanın, dağın,
Dibi Zərdüştlərin ocaq yeridir.
O gündən üstündə ana torpağın
Qalan min yağının ləpirləridir.

Biz nöqtə qoymuşuq acıya, dərdə
Ömrü ulduzlardan almışıq indi.
Babamız qəm əkib, qəm biçən yerdə
Çiçəkli bağ-bağat salmışıq indi.

Hanı Qəmküsarın qəm şəlaləsi,
Qəlbində apardı neçə dərdi o.
Çatsa qulağına bu günün səsi
Ayılıb adını dəyişərdi o.

Şəhərim çırağban, kəndim çırağban
Kəhkəşan sinəmdən nur alsın deyir,
Onun gecəsinin işıqlarından
O tayın gündüzü işıq istəyir.

**IV İştirakçı: Sumqayıt  (Əvəz Mahmud Lələdağ)**

Ay əliylə qələm çəkib qaşına,
Bərəkəti günəş töküb başına,
Yaman gəlib göy Xəzərin xoşuna,
Xəzər kimi sonsuzlaşır Sumqayıt,
Bir ümmandır, aşıb-daşır Sumqayıt.

Binaları cərgələnir, ucalır,
Oğlu, qızı məhəbbətdən güc alır.
Hər kim desə Sumqayıtım qocalır,
İnanmayın, təzə coşur Sumqayıt.
Qocaldıqca cavanlaşır Sumqayıt.

Hər yerində xoş arzular gül açır,

Qucağında gül balalar dil açır,
Gənclik burdan səadətə yol açır,
Qardaşlığa nəğmə qoşur Sumqayıt,
Kainatla soraqlaşır Sumqayıt.

Fəhləsinin alnı açıq, üzü ağ,
Küçələri yaraşıqlı, çilçiraq.
Qibləgahdır, səcdəgahdır bu torpaq,
Bu torpağa çox yaraşır Sumqayıt,
Bakı ilə qucaqlaşır Sumqayıt.

*Sonda münsiflər heyəti qalibləri təyin edərək onları mükafatlandırır.*

*2026-cı il "Şəhərsalma və Memarlıq İli" ilə əlaqədar olaraq kitabxanalarda keçirilən tədbirlərdən biri də "**dəyirmi masadır.** Dəyirmi masa zamanı tələbələr 2026-cı il "Şəhərsalma və Memarlıq İli" nin elan olunması dövətimiz, xalqımız üçün mühüm rolu və dəyərindən bəhs edir.*

***Kitabxanaçı:*** Qədim Bakının memarlıq tikililəri, məhəllə və meydanları, tarixi yerləri sırasında park və bağların da mühüm yeri var. Belə tarixləşən ünvanlardan biri də şəhərin mərkəzində yerləşən, ta qədimdən "Molokan bağı" kimi tanınan indiki "Xaqani bağı"dır. "Şəhərsalma və Memarlıq İli" çərçivəsində bağın tarixi və taleyi ilə tanışlıq bizi xəyalən ötən əsrin əvvəllərinə apardı.

Mənbələrdən məlum olur ki, Bakı şəhərinin ən qədim parklarından hesab edilən bu park 1860-cı illərdə molokanlar tərəfindən salınmışdır. Bağın mərkəzində üç elementin təcəssümü "Üç lütf" heykəltaraşlıq qrupu olub: günəş, hava və su. Təbii daşdan böyük bloklar heykəl üçün postament rolunu oynayıb. 1860-cı illərdə parkın ətrafında bir neçə karvansara olub. Bu karvansaralarda rayonlardan və Bakı ətrafı ərazilərdən satış üçün mallarla Bakıya gələn molokanlar yaşayıblar. Bəziləri yaxınlıqda məskunlaşaraq, Molokan qəsəbəsini təşkil etmişdilər. Daha sonra, yəni 1870-ci ilin əvvəllərində onlar kiçik bir park düzəltmişdilər. Parkın mərkəzindəki fəvvarə yaxınlıqda, Mariinskaya (Rəsul Rza) və Molokanskaya (Xaqani) küçələrinin kəsişməsində yaşayan molokan Kaşçeyev tərəfindən tikilmişdir. 1915-ci ildə şəhərin mərkəzi məhəllələrinin inkişafı ilə əlaqədar həyətləri və tövlələri olan Molokan qəsəbəsi sökülmüş, molokanlar isə Dəmir yolu vağzalı istiqamətinə köçürülmüşlər. O zaman meydanın adı dəyişdirilərək "Mariinski" meydanı adlandırılmışdı.
Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra bağa bolşevik Həşim Əliyevin adı verilmiş, sonralar isə 1905-ci ilin Qanlı bazar günü xatirəsinə "9 Yanvar bağı" adlandırılmışdır. Ötən əsrin sonlarında Azərbaycan öz tarixi müstəqilliyini bərpa

etdikdən sonra bağ başdan-başa yenilənib, adı dəyişdirilərək Xaqani Şirvaninin şərəfinə adlandırılıb. Bağın arxitektura-landşaft kompozisiyasının əsası üç qızın heykəlindən təşkil edilmiş "Üç gözəl" heykəllər qrupu ilə əyri cızıqlı formalı hovuzdan ibarətdir. Heykəllər qrupu adi daşın böyük parçaları üzərində oturdulmuşdur.
Bağın cərgələri su hovuzundan başlayır. Bağın yolları elə istiqamətlənib ki, onlar mərkəzdə yerləşən hovuza qədər diaqonal şəklində davam edir. Ərazisi 0,8 hektar olan bu tarixi məkan cənubdan Üzeyir Hacıbəyli, şimaldan Xaqani, şərqdən Qoqol, qərbdən Rəsul Rza küçələri ilə məhdudlaşır. Park gözəlliyi və qədimliyi ilə Bakıya gələn turistlərdə və gənc nəsildə böyük maraq doğurur.

**I İştirakçı:** Tarixin izinə düşən daşın yaddaşını oxuya bilən memarlar az olur. Onlar yalnız bina inşa etmirlər, zamanla üz-üzə dayanıb babalarımızın min illər əvvəl tikib qoyduqları tarixi yadigarları, mədəni irsimizi yaşadıb, yenidən həyat verib gələcək nəsillərə ötürürlər.
Azərbaycan memarlıq məktəbinin tanınmış nümayəndələrindən biri Əməkdar memar Ədalət Eyvaz oğlu Məmmədov da məhz bu nadir sənət sahiblərindəndir. O, keçmişin gözəllikləri ilə müasirliyi sintez etməyi bacaran nadir sənətkarlardandır. Ə.Məmmədovu tanımaq üçün onun imzasını daşıyan layihələr sırasında Bakının möhtəşəm və nadir tarixi-memarlıq nümunələrindən biri olan Heydər məscidini qeyd etmək kifayətdir. Bu abidə təkcə dini məkan deyil, milli memarlıq düşüncəsinin, estetik zövqün və məsuliyyətli memar mövqeyinin ən mükəmməl ifadəsidir.
Ədalət Məmmədovun həyat yolu zəhmət və əqidə üzərində qurulub. O, Bərdə şəhərində çoxuşaqlı ailədə dünyaya göz açıb. Atası feldşer, anası evdar qadın olub. Beş yaşında atasını itirən Ədalət Məmmədovun ailəsində əsas yük anasının çiyinlərinə düşüb. Deyir ki, zəhmətkeş anamız 7 övladını namusla, zəhmətlə, şərəflə böyüdüb, 7 uşağın hamısının ali təhsilli olması üçün canını oda yaxıb.
1966-1976-cı illərdə Bakıda 4 nömrəli fars təmayüllü orta məktəbdə təhsil alan Ədalət hələ məktəb illərindən əl qabiliyyəti və təsviri düşüncəsi ilə seçilib. Divar qəzetlərinin tərtibatı, rəssamlıq işləri məktəbdə ona həvalə olunub. Əslində, onun arzusu şərqşünas olmaq idi. Lakin İnşaat Mühəndisləri İnstitutunda təhsil alan böyük qardaşı onun memarlığa olan fitri qabiliyyətini görərək bu istiqamətə yönləndirib: "Məndən böyük qardaşım İnşaat İnstitutunda oxuyurdu. İndi İspaniyada yaşayır. Heykəltaraşdır. Mənə dedi ki, Ədalət, sən seçilən bir memar ola bilərsən. Memarların ömrü uzun, bəzən də əbədiyaşar olur. Atalar elə-belə deməyiblər ki, tikmədim özüm qalam, tikdim ki, izim qala. Sən də tik ki, bu dünyada bir iz qoya biləsən. Qərara gəldim ki, memar olacağam".

1977-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun Memarlıq fakültəsinə daxil olan Ədalət Məmmədov 1983-cü ildə ali təhsilini başa vurub. Amma onun əmək fəaliyyəti hələ tələbəlik illərindən - 1980-ci ildən başlayıb. O, Mədəniyyət Nazirliyində tarix və mədəniyyət abidələrinin bərpası ilə məşğul olub və ömrü boyu bu sahədən ayrılmayıb. Hazırda da Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Azərbərpa" Elmi-Tədqiqat Layihə İnstitutunda baş mütəxəssis olan Ədalət Məmmədov 1980-1989-cu illərdə Şuşa Memarlıq Qoruğundakı tarixi abidələrin sənədləşdirilməsi və bərpası ilə məşğul olub. Onun gördüyü işlərin siyahısına baxanda göz önündə bütöv bir tarix canlanır.

Ədalət Məmmədov deyir ki, memarlıq gözəl sənətdir, amma bərpaçılıq tamam başqa aləmdir. Onun fikrincə, bərpaçı memarı həkimlə müqayisə etmək olar: "Həkim necə ki, xəstənin dərdini öyrənir, diaqnoz qoyur və müalicə edir, bərpaçı memar da abidəni öyrənir - bünövrəsindən dam örtüyünə qədər. Dağıntının səbəbini araşdırır, arxiv materiallarını tədqiq edir və yalnız bundan sonra qərar verir: bu abidə vaxtilə necə olubsa, elə də bərpa olunmalıdır".

1979-1992-ci illərdə Qarabağda çalışan memar bölgədəki tarixi abidələrin pasportlaşdırılmasını həyata keçirib. 1986-cı ildə Xocavənd rayonuna ezamiyyəti zamanı erməni məmurlar tərəfindən ciddi maneələrlə üzləşib.

Ədalət Məmmədov Xocavənd rayonunda qarşılaşdığı bir hadisəni unutmur: "Tarixi abidələrin pasportlaşması məqsədilə Xocavəndə ezam olunmuşdum. Xocavənd rayonunun Mədəniyyət şöbəsinin müdiri hər vəchlə işimə mane olmağa çalışırdı. Səbəb də aydın idi. O zaman Rəna Əfəndizadə Qarabağdakı bir çox kilsə və məbədlərin alban irsinə aid olduğunu elmi əsaslarla sübut edən kitab yazmışdı. Ermənilər isə bütün alban abidələrini öz adlarına çıxmaq istəyirdilər. Mədəniyyət Nazirliyinə zəng vurub o zaman tarixi abidələrə nəzarət edən Şamil Əliyevə məlumat verdim. Mədəniyyət Nazirliyinin dəstəyilə işlərimi davam etdirdim. Talış kəndində olanda mənə bələdçilik edən erməni dedi ki, buradakı meşə ərazisində qədim bir qala-şəhər var. O zaman bu qala-şəhərin adı bizim siyahıda yox idi. Həmin abidənin yerləşdiyi əraziyə gedib ərazini ölçüb qeydiyyata saldım. Qaladan Tərtərçaya gizli tunel də çəkilmişdi. İndi bu abidə tarixi Urek qalası, Urek məbədi, alban monastrları kimi mühüm abidələr sırasında yer alır".

Bu gün düşməndən azad edilmiş Qarabağda yenidən tarixi-mədəni irsimizin bərpası ilə məşğul olan Ədalət Məmmədovun müəllifi olduğu layihələr sırasında Yuxarı Gövhər ağa məscidi, Şuşa qalası, Üzeyir bəy Hacıbəylinin ev-muzeyi, Şirin su hamamı, Xan qızı Natəvanın evi, Ağdam Cümə məscidi, Zəngilan Şəhər məscidi və onlarca digər abidə var. Onun rəhbərliyi ilə görülən işlər sırasında Gəncə İmamzadə Kompleksi, Qarabağlar türbəsi, Milli Azərbaycan Tarixi Muzeyi (Tağıyev sarayı), "Sınıq Körpü", Şah Abbas karvansarayı kimi milli əhəmiyyətli abidələrin bərpası da xüsusi yer tutur.

Ədalət Məmmədovun yaradıcılığında xüsusi mənəvi çəkisi olan əsərlərdən biri də 20 Yanvar Abidə Kompleksidir. Bu kompleks təkcə memarlıq nümunəsi deyil, xalqın ağrısının, ləyaqətinin və sarsılmaz iradəsinin daş yaddaşıdır. Burada hər bir xətt, ərazinin quruluşu, həcm kədərin və ucalığın ifadəsidir. Memar bu abidədə formadan daha çox məna qurur, daş vasitəsilə sükutu danışdırır. 20 Yanvar Abidə Kompleksi Ədalət Məmmədovun sənət fəlsəfəsinin ən aydın ifadələrindən biridir. Tarixi hadisəni, sadəcə, xatırlatmır, onu milli yaddaşın ayrılmaz parçasına çevirir və gələcək nəsillərə ötürür.

Ədalət Məmmədov Azərbaycan abidələrinin ilkin siyahısının və İçərişəhər Qoruq Kompleksinin UNESCO siyahısına salınması layihəsində memarlar qrupuna rəhbərlik edib. 2018-ci ildə ona Azərbaycan Respublikasının Əməkdar memarı, 2019-cu ildə isə "Ustad Memar" adı təqdim olunub. Bu yolun fəlsəfəsi isə sadə və dərin bir cümlədə ifadə olunur: "Tikmədim özüm qalam, tikdim ki, izim qala".

**II İŞtirakçı:** Qədim Bakının memarlıq tikililəri, məhəllə və meydanları, tarixi yerləri sırasında park və bağların da mühüm yeri var. Belə tarixləşən ünvanlardan biri də şəhərin mərkəzində yerləşən, ta qədimdən "Molokan bağı" kimi tanınan indiki "Xaqani bağı"dır. "Şəhərsalma və Memarlıq İli" çərçivəsində bağın tarixi və taleyi ilə tanışlıq bizi xəyalən ötən əsrin əvvəllərinə apardı.

Məxəzlərdən məlum olur ki, Bakı şəhərinin ən qədim parklarından hesab edilən bu park 1860-cı illərdə molokanlar tərəfindən salınmışdır. Bağın mərkəzində üç elementin təcəssümü "Üç lütf" heykəltaraşlıq qrupu olub: günəş, hava və su. Təbii daşdan böyük bloklar heykəl üçün postament rolunu oynayıb. 1860-cı illərdə parkın ətrafında bir neçə karvansara olub. Bu karvansaralarda rayonlardan və Bakıətrafı ərazilərdən satış üçün mallarla Bakıya gələn molokanlar yaşayıblar. Bəziləri yaxınlıqda məskunlaşaraq, Molokan qəsəbəsini təşkil etmişdilər. Daha sonra, yəni 1870-ci ilin əvvəllərində onlar kiçik bir park düzəltmişdilər. Parkın mərkəzindəki fəvvarə yaxınlıqda, Mariinskaya (Rəsul Rza) və Molokanskaya (Xaqani) küçələrinin kəsişməsində yaşayan molokan Kaşçeyev tərəfindən tikilmişdir. 1915-ci ildə şəhərin mərkəzi məhəllələrinin inkişafı ilə əlaqədar həyətləri və tövlələri olan Molokan qəsəbəsi sökülmüş, molokanlar isə Dəmir yolu vağzalı istiqamətinə köçürülmüşlər. O zaman meydanın adı dəyişdirilərək "Mariinski" meydanı adlandırılmışdı.

Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra bağa bolşevik Həşim Əliyevin adı verilmiş, sonralar isə 1905-ci ilin Qanlı bazar günü xatirəsinə "9 Yanvar bağı" adlandırılmışdır. Ötən əsrin sonlarında Azərbaycan öz tarixi müstəqilliyini bərpa etdikdən sonra bağ başdan-başa yenilənib, adı dəyişdirilərək Xaqani Şirvaninin şərəfinə adlandırılıb. Bağın arxitektura-landşaft kompozisiyasının əsası üç qızın heykəlindən təşkil edilmiş "Üç gözəl" heykəllər qrupu ilə əyri cızıqlı formalı hovuzdan ibarətdir. Heykəllər qrupu adi daşın böyük parçaları üzərində oturdulmuşdur.

Bağ pavilyonunun cərgələri su hovuzundan başlayır. Bağın yolları elə istiqamətlənib ki, onlar mərkəzdə yerləşən hovuza qədər diaqonal şəklində davam edir. Ərazisi 0,8 hektar olan bu tarixi məkan cənubdan Üzeyir Hacıbəyli, şimaldan Xaqani, şərqdən Qoqol, qərbdən Rəsul Rza küçələri ilə məhdudlaşır. Park gözəlliyi və qədimliyi ilə Bakıya gələn turistlərdə və gənc nəsildə böyük maraq doğurur.

**III İştirakçı:** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 22 dekabr 2025-ci il sərəncamı ilə 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ölkənin bu il nəhəng tikinti layihələrinə imza atacağından xəbər verir. Bu baxımdan Azərbaycanın BMT-nin Məskunlaşma Proqramı ilə əməkdaşlığı, milli şəhərsalma forumları və 2026-cı ildə 17-22 may tarixlərində Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun (WUF13) 13-cü sessiyası, ölkənin davamlı urbanizasiya prosesindəki artan rolunu və beynəlxalq əməkdaşlığının uğurunu nümayiş etdirir.
Ümumdünya Şəhərsalma Forumunun (WUF13) 13-cü sessiyasının mövzusu "Dünyanı mənzillə təmin etmək: Təhlükəsiz və dayanıqlı şəhərlər və icmalar"dır. Forum, şəhərsalma ilə bağlı ən aktual məsələləri müzakirə etmək üçün hökumət nümayəndələri, merlər, alimlər, biznesmenlər, icma rəhbərləri və digər maraqlı tərəfləri bir araya gətirən qlobal platformadır.
2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi təsadüfi deyil. Əslində, Azərbaycan Prezidenti İlham Əliyevin bir neçə çıxışında Bakı və ölkənin region şəhərlərinin yenidən dizayn edilməsi ilə bağlı məsələyə münasibət bildirilmişdir. Mübaliğəsiz deyə bilərik ki, ölkə başçısının bu istiqamətdə çıxışları şəhər sosiologiyası baxımından mühüm məna kəsb edir. Rasional-leqal lider olan Prezident İlham Əliyevin şəhərsalma və memarlıqla bağlı çıxışları şəhər sosiologiyası ilə bağlı tədqiqat işlərinin nəticələri ilə tam adekvat səslənir. Dövlət başçısının xüsusilə şəhərsalmada şəhərin konsentrik zonalara bölünməsi ilə bağlı planları, inklüziv, əlçatan, ekoloji təmiz, smart şəhər texnologiyaları ilə bağlı yanaşması bu baxımdan diqqət cəlb edir.
Hazırda respublikamızda paytaxtdan başlayaraq ölkənin bütün bölgələrinə qədər genişmiqyaslı şəhərsalma layihələri həyata keçirilir. "Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"nın əsas xüsusiyyətlərindən biri çoxmərkəzli inkişaf modelinin tətbiqidir. Bu modelə əsasən, bütün fəaliyyətlərin bir mərkəzdə cəmlənməsi əvəzinə, Bakı şəhəri boyunca bir-biri ilə əlaqəli mərkəzlər və alt-mərkəzlər şəbəkəsi formalaşdırılır. Bu model elmi əsaslara malik olub şəhər sosialogiyası istiqamətində ciddi tədqiqatlar aparan Ernest Burgess tərəfindən hazırlanmış konsentrik zonalar modelinə çox yaxındır. Ernest Burgess modeli şəhərin mərkəzdən kənara doğru beş fərqli, konsentrik zonadan ibarət olduğunu iddia edir. Hər zona fərqli sosial və iqtisadi xüsusiyyətlərə malikdir. Məsələn, mərkəzi biznes rayonu şəhərin ticarət və iş mərkəzi kimi, keçid zonası köhnəlmiş

yaşayış binaları və sənaye obyektlərinin yerləşdiyi, sosial problemlərin (kriminallıq, yoxsulluq) cəmləşdiyi ərazi kimi, fəhlə evləri zonası sənaye işçilərinin nisbətən yaxşı şəraitdə yaşadığı ərazi, orta sinif yaşayış zonası daha geniş evlər və yaxşı məhəllələri əhatə edən ərazi və nəhayət, komutator zonası (şəhərətrafı) şəhərin mərkəzində işləyənlərin yaşadığı kənar, imkanlı təbəqənin məskunlaşdığı zona kimi xarakterizə olunur.

Azərbaycan digər sahələrdə olduğu kimi, dünyadakı şəhərsalma çağırışları fonunda da ortaq məqsədlər naminə həmrəylik nümayiş etdirir. Bu baxımdan respublikamızın BMT-nin Məskunlaşma Proqramı (UN-HABITAT) çərçivəsində əməkdaşlığı da böyük önəm daşıyır. Bu əməkdaşlığın nəticəsində Azərbaycanda ilk dəfə olaraq 2022-ci il oktyabrın 5-6-da BMT-nin Məskunlaşma Proqramı ilə birgə Ağdam və Bakı şəhərlərində 44 ölkədən ümumilikdə 400 nəfər iştirakçının qatıldığı 1-ci Milli Şəhərsalma Forumu təşkil edilib. 2023-cü il sentyabrın 29-da isə BMT-nin Məskunlaşma Proqramının və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşlığı ilə keçirilən "Şəhərsalma Həftəsi 2023" tədbirləri çərçivəsində Zəngilanda "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda 2-ci Milli Şəhərsalma Forumunun açılış mərasimi baş tutub. 2025-ci il oktyabrın 15-də isə Xankəndi şəhərində III Azərbaycan Milli Şəhərsalma Forumunun açılış mərasimi keçirilib və sonra tədbir paytaxt Bakıda davam etdirilib. "BMT nin Məskunlaşma Proqramı ("UN-Habitat") ilə birgə təşəbbüslər və bu çərçivədə memarların bir araya gəldiyi milli şəhərsalma forumları Azərbaycanın beynəlxalq tərəfdaşlarla ortaq fəaliyyətinin uğurlu nümunəsidir.

BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat), BMT-nin insan məskənləri və davamlı şəhər inkişafı üzrə proqramıdır. Onun əsas məqsədi sosial və ekoloji cəhətdən dayanıqlı şəhərlər, qəsəbələr yaratmaq, urbanizasiya problemlərini həll etmək və üzv ölkələrə bu sahədə dəstək verməkdir. UN-Habitat bütün dünyada daha yaxşı şəhər yaşayışı üçün səyləri koordinasiya edən BMT-nin mərkəzi agentliyidir. Şəhər planlaması, yaşayış və infrastruktur sahəsində siyasətlər hazırlamaq işində ölkələrə texniki dəstək və təcrübə mübadiləsi təşkil etmək, məskunlaşma forumları keçirərək qlobal dialoqu təşviq etmək onun əsas fəaliyyət sahələrindəndir. Azərbaycan ilk dəfə olaraq 2025-2029-cu illər üçün UN-Habitat İcraiyyə Şurasına üzv seçilib.

Məlumdur ki, şəhər sosiologiyası şəhəri bir icma növü kimi araşdırır, şəhər həyatının xüsusiyyətlərini (istirahət, kütləvi mədəniyyət, ünsiyyət), şəhərin kiçik qruplarını və sosial qurumlarını, sosial-demoqrafik və irqi problemləri araşdırır. Şəhər sosiologiyasına töhfə verən görkəmli sosioloqlardan biri Maks Veberdir. Maks Veberin şəhər sosiologiyasına dair baxışları əsasən onun ölümündən sonra, 1921-ci ildə nəşr olunan "Şəhər" (Die Stadt) əsərində cəmlənmişdir. O, şəhəri sadəcə coğrafi

və ya demoqrafik bir vahid kimi deyil, kompleks bir sosial struktur və "ideal tip" kimi təhlil etmişdir. Veber şəhəri müəyyən xüsusiyyətlərin məcmusu kimi təsvir edir. Onun fikrincə, "tam bir şəhər" (xüsusilə Qərb tipli şəhər) beş əsas elementə malik olmalıdır: Müdafiə üçün qala (fortifikasiya); İqtisadi mübadilə üçün bazar; Xüsusi (şəhərli) qanunlara malik məhkəmə; Müvafiq assosiasiya forması (vətəndaşlıq birliyi); Ən azı özünüidarəetmə. Veber şəhəri istehlak və istehsal mərkəzi kimi fərqləndirir. O, "istehlakçı şəhərlər" (dövlət məmurlarının və torpaq sahiblərinin yaşadığı) və "istehsalçı şəhərlər" (sənaye və ticarətin üstünlük təşkil etdiyi) arasında fərq qoyurdu. Veberə görə, həqiqi mənada "şəhər icması" yalnız Orta əsr Avropasında formalaşmışdır. Şərq şəhərlərindən fərqli olaraq, Qərb şəhərlərində insanlar qəbilə və ya kast qohumluğundan qoparaq vahid bir "vətəndaş" statusu ətrafında birləşmişdilər. Veberin məşhur "Şəhər havası insanı azad edir" (Stadtluft macht frei) prinsipi onun sosiologiyasında mühüm yer tutur. Şəhər feodal asılılığından qurtulmaq və rasional hüquqi sistemin qurulması üçün bir məkandır. Veberin bu yanaşması müasir şəhər sosiologiyasının, xüsusən də "Çikaqo məktəbi"nin formalaşmasına böyük təsir göstərmişdir.

Veber bütövlükdə şəhəri qonşularının cəmiyyətinə xas olan bir-biri ilə şəxsi tanışlığından məhrum olduğu qədər böyük olan bir-birinə bitişik evlərdən ibarət bir kənd kimi xarakterizə edir. Veberdən əlavə, böyük şəhərlərin cəmiyyətdəki rolunu alman sosioloqları Karl Büxher və Georq Zimmel da öyrənmişlər.

Şəhər sosiologiyasının əsl çiçəklənməsi Çikaqo Məktəbinin alimlərinin (Robert Park, Ernst Bercess və Luis Virt) tədqiqatlarında oldu. Çikaqo sosioloqlarının konsepsiyasında şəhər kortəbii inkişaf edən orqanizm kimi şərh olunurdu; şəhər əhalisinin məruz qaldığı biotik proseslərin təsiri altında o, spesifik sosial-iqtisadi quruluş kəsb edirdi. 30-cu illərin sonlarında L. Virt şəhərin sosioloji tədqiqinin yeni metodunu təklif edərək şəhər həyat tərzi anlayışını önə çəkmişdir. Çikaqo Məktəbi urbanizmin sosial problemlərini (cinayətkarlıq, yoxsulluq, segregasiya) tədqiq etmiş, ekoloji yanaşma, simvolik interaksionizm və keyfiyyət (etnoqrafik) metodları tətbiq etmişdir. Robert E. Park və Ernest Berges kimi alimlər şəhərin ayrı-ayrı zonalarını (ekoloji struktur) analiz edərək urbanizmin insan davranışına təsirini öyrənmişdir.

Şəhər sosiologiyası şəhərsalma məsələlərinə bir sıra yanaşma modeli ilə izah verir. Bunlardan biri ekoloji şəhər nəzəriyyəsidir. Bu nəzəriyyə Şəhəri müxtəlif zonalar (mərkəz, keçid zonası, işçi zonası, müstəqil yaşayış zonaları) üzrə tədqiq edir (Berges və McKay). Digər bir model sosial dezorqanizasiya adlanır ki, bu da şəhərləşmənin, sosial dəyişikliklərin sosial normaları zəiflətməsi və nəticədə cinayətkarlığın artmasına səbəb olmasını qeyd edir. Şəhər həyatının fərdlərin bir-biri ilə və mühitlə interaksiyası yolu ilə necə formalaşdırıldığını öyrənən digər yanaşma simvolik interaksionizm adlanır.

Robert Parkın təmsil olunduğu şəhər ekologiyası şəhəri müxtəlif sosial qrupların bir-biri ilə rəqabət apardığı təbii bir ekosistem kimi görürdü. Əsas konsepsiyaları ekoloji bölgüləşmə konsepsiyası idi ki, bu da şəhərin fərqli "zonalar"a (mərkəz, keçid, işçi, residential) ayrılmasını nəzərdə tuturdu. Burada qeyd olunurdu ki, şəhərin sürətli dəyişiklikləri sosial normaların pozulmasına (dezorqanizasiya) və fərdlərdə anomiya yaratmasına səbəb olur. Şəhər həyatının fərdin psixologiyasına təsiri, urbanizasiyanın yaratdığı psixoloji stres və yeni şəxsiyyət formaları (məsələn, biganə, kosmopolit insan) təhlil edilirdi. Böyük sosial strukturlardan daha çox, fərdlərin gündəlik qarşılıqlı təsirlərinə, mənalarına və sosiallaşma proseslərinə diqqət yetirirdi. Şəhər həyatını anlamaq üçün şahidlər ifadələri, müsahibələr, şəxsi sənədlər və etnoqrafik müşahidələr kimi keyfiyyət təhlili metodlarından geniş istifadə olunurdu. Çikaqo şəhəri bu tədqiqatlar üçün laboratoriya rolunu oynayırdı. Əhalinin miqrasiyası, məhəllələrin yaranması, cinayətkarlıq, gettolar və sosial problemlər araşdırılırdı.

Çikaqo Məktəbinin insan ekologiyası yanaşması şəhər mühitindəki qarşılıqlı əlaqələri təbii həyatdakı (biologiyadakı) rəqabət, uyğunlaşma, işğal və ardıcıllıq kimi proseslərə bənzədir. Şəhər fərdlər və qruplar arasında daimi bir rəqabət meydanı olaraq görülür. Şəhər ekologiyasının əsasını qoyanlardan biri Robert E. Park şəhərin sosial-psixoloji həyatını və irqi münasibətləri araşdırırdı. "Şəhər" (The City) adlı kitab (Park, Burgess və McKenzie, 1925) bu məktəbin əsas əsərlərindən biridir. Ümumilikdə, Çikaqo Məktəbi şəhəri tədqiq etməyə elmi və ekoloji bir yanaşma gətirmiş, fərd-cəmiyyət-mühit qarşılıqlı əlaqələrini modern şəhər kontekstində öyrənmişdir.

Manuel Kastells kimi sosioloqlar urban sosiologiyasının dar çərçivəsini (yalnız böyük şəhərlərə fokuslanmaq) tənqid edərək, bütün məskunlaşma formalarını (qəsəbələr, kəndlər) əhatə edən daha geniş "məskunlaşma sosiologiyası" təklif etmişdir. Şəhərlər böyüdükcə və əhalinin əksəriyyəti şəhər və şəhərətrafı ərazilərdə yaşadıqca, bu sahə sosial siyasətlər, məkan planlaşdırılması və cəmiyyətin inkişafı üçün vacib bir istiqamətə çevrilmişdir.

Şəhər sosiologiyasının öncüllərindən biri Georq Zimmel olub, böyük şəhərlərin insan psixologiyasına və sosial münasibətlərə təsirini, xüsusən də metropolisdəki təəssübkeşlik və pul münasibətlərinin rolunu təsvir etmiş, şəhəri fərdlərin fərdi həyatının zənginləşdirilməsi ilə yanaşı, eyni zamanda, yadlaşma və qəriblik mənbəyi kimi də qələmə vermişdir. O, bunu "Metropolis və Mental Həyat" əsərində izah etmişdir. Zimmel'in bu fundamental məqaləsi böyük şəhərin əhalinin düşüncə tərzinə təsirini tədqiq edir. Şəhər həyatı sensor informasiyanın həddindən artıq yüklənməsinə səbəb olur. Bu informasiya yükünə cavab olaraq, şəhər sakinləri özlərini qorumaq üçün hisslərini söndürür, laqeyd və təəssüfkeş olurlar. Bu, onların fərdiyyətini qorumağa kömək edir. Zimmel pulu universal vasitəçi kimi görür. Pulun

dominantlığı şəxsi münasibətləri əvəz edərək, hər şeyi mübadilə obyektinə çevirir, bu da şəhər cəmiyyətindəki münasibətlərin soyuqlaşmasına səbəb olur. Şəhər, fərdlərə özlərini ifadə etmək üçün daha çox imkanlar yaratsa da, eyni zamanda onların kollektivin içində itməsinə və yadlaşmasına səbəb olur. Zimmel şəhəri həm fərdiyyətin inkişafı, həm də sosial təcridin mənbəyi kimi ikili bir yer kimi görür; metropolis insanları sosial baxımdan azad etdiyi qədər, onları daha da təcrid edir.
Louis Virth şəhər sosiologiyasının əsas simalarından biri olaraq "Böyük Şəhər və Şəxsiyyət" əsərində şəhəri böyük ölçüsü, sıx məskunlaşması, müxtəlifliyi ilə xarakterizə edir, bu da insanlararası münasibətlərdə instrumental, impersonal xarakterə, ayrı-seçkiliyə, fərdiyyətçiliyə gətirib çıxarır, şəhər həyatını stressli, qəribə hiss etdirir. Virt, Çikaqo Məktəbinin nümayəndəsi idi, onlar şəhəri sosial proseslərin tədqiq edildiyi "sosial laboratoriya" kimi gördülər. Virthə görə, şəhər dedikdə yalnız demoqrafik sıxlıq deyil, eyni zamanda, insanların bir-birini şəxsən tanımadığı böyük və müxtəlif bir əhali nəzərdə tutulur. O, şəhərin böyüklüyü, sıxlığı və müxtəlifliyinin insan psixologiyasına və sosial münasibətlərə təsirini araşdırıb. Virt hesab edirdi ki, bu amillər şəhər sakinlərində soyuqluq, təbəqələşmə, superficial münasibətlər yaradır, bu da şəhər həyatını qeyri-insani edir. Virt, şəhəri yalnız bir yer deyil, həm də insanların davranışlarını formalaşdıran bir sosial sistem olaraq təhlil edirdi.
Bu gün şəhərsalma işində əsas meyarlardan biri inklusivlikdir. Ən ümumi əsasa görə inklusiv şəhərlər fiziki imkanlarından, yaşından, gəlir səviyyəsindən, etnik mənsubiyyətindən və ya digər xüsusiyyətlərindən asılı olmayaraq, hər bir sakinin bərabər hüquqlara, xidmətlərə və imkanlara çıxışını təmin edən yaşayış məskənləridir.
Dünya Bankı və BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) tərəfindən müəyyən edilən inklüziv şəhərin üç əsas sütunu var: Məkan inklusivliyi: Hər kəs üçün əlçatan mənzil, təmiz su, sanitariya və enerji kimi əsas infrastrukturun təmin edilməsi. Sosial inklüzivlik: İrqi, dini və ya fiziki fərqliliyindən asılı olmayaraq hər kəsin şəhər idarəçiliyində iştirakı və sosial qorunması. İqtisadi inklusivlik: Bütün sakinlərin iş imkanlarına çıxışının olması və şəhərin iqtisadi artımından pay alması. İnklüziv şəhərin əsas xüsusiyyətləri əlçatan infrastruktur yəni əlil arabası istifadəçiləri, görmə məhdudiyyətli şəxslər və yaşlılar üçün maneəsiz səkilər, panduslar və liftlər. Universal dizayn ictimai nəqliyyatın və binaların hər kəs tərəfindən rahat istifadə edilə biləcək şəkildə layihələndirilməsi. Əlçatan mənzil bazarı şəhər mərkəzlərində yalnız zənginlərin deyil, aşağı gəlirli təbəqənin də yaşaya biləcəyi sosial evlərin olması. Bu baxımdan Bakı şəhəri örnəyində biz sosial evlər nümunəsində bunu qeyd edə bilərik.
Yaşıl zonalar və parklar: Hər bir məhəllədə pulsuz və təhlükəsiz istirahət sahələrinin mövcudluğu. Hazırda inklüziv şəhər konsepsiyası "Ağıllı Şəhər" texnologiyaları ilə birləşir. Məsələn, görmə məhdudiyyətli şəxslər üçün səsli bələdçi tətbiqləri və ya

yaşlıların həyatını asanlaşdıran rəqəmsal xidmətlər bu sahədə prioritetdir. Azərbaycanda bu istiqamətdə addımlar atılsa da sistemli, tam əhatəli bir reallığa hələ nail ola bilməmişik. Hərçənd, işğaldan azad edilmiş ərazilərdə (məsələn, Ağdam və Füzuli) salınan "Ağıllı şəhər" və kəndlərdə inklusivlik və əlçatanlıq standartları əsas götürülür.

**2026-cı il "Şəhərsalma və Memarlıq İli" ilə əlaqədar olaraq kitabxanalarda keçirilən tədbirlərdən biri də oxucularla söhbətdir. Tədbir dəvət olunmuş müəllimlər və məktəblilər mövzu haqqında öz çıxışlarına keçid alır.**

**I Müəllim** XI və XII əsrlər — Azərbaycan intibahının çiçəklənmə dövrüdür. Şəhərlər böyüyür, saraylar, məscidlər, müdafiə və xatirə tikililəri qurulur. Sənətlər, elm, incəsənət və poeziya inkişaf edir. Bu dövrdə bir sıra dahi şəxsiyyətlər yaşayıb-yaratmışlar: Qətran Təbrizi, Bəhmənyar əl-Azərbaycani, Xətib Təbrizi, Nizami Gəncəvi, Xaqani Şirvani, Ömər Kafiəddin, Əbülüla Gəncəvi, Məhsəti Gəncəvi və başqaları.ə

Yalnız Şərqdə deyil, əksər qismi həm də Qərb dünyasında yaxşı tanınan bu kəhkəşanın ulduzları arasında ən çox işıq saçanlarından biri də Əcəmi Naxçıvanidir. O, orta əsrlər Azərbaycanının dahi memarı kimi şöhrət qazanmışdır.

Tanınmış sənətşünaslardan Ə. V. Salamzadə onun haqqında yazır: "Yaxın Şərqin bir çox memarlarının yaradıcılığına onun təsirini izləmək çətin deyil. Onun yaratdığı nadir arxitektura əsərləri əsrlər keçməsinə baxmayaraq, böyük estetik həzz mənbəyi kimi sənətkarın yaradıcı dühasının gücünü əks elətdirir. Bu əsərlər sübut edir ki, Əcəminin ölməz irsi haqlı olaraq, memarlıq sənətinin əbədi nümunələrindən sayılır. Yenidən doğulmuş bu sənət abidələri belə bir fikrə gəlməyə əsas verir ki, Əcəmi Naxçıvani öz dövründə tayı-bərabəri olmamış sənətkarlardandır. Təsadüfi deyil ki, XIII əsr mənbələri onun "şeyxül-mühəndisin" (mühəndislər başçısı) rütbəsi daşıdığından xəbər verir. Hələ Qərb dünyasında arxitektura sənəti anonim səciyyə daşıyan bir Dövrdə Əcəmi bir çox memarlıq incilərinin müəllifi kimi bizim qarşımızda parlaq və təkrar olunmaz yaradıcı simaya malik böyük sənətkar, bədii və mühəndis təfəkkürünün nəhəngi kimi canlanır."

Əcəmi öz ömrünü İraq Sultanlığında — Azərbaycan Atabəylər dövlətinin ərazisində yaşamışdır. Bu dövlətin mərkəz şəhərlərindən biri də Naxçıvan idi. Atabəylər dövləti böyük atabəy Şəmsəddin Eldənizin dövründə yaranmış, onun oğlu Məhəmməd Cahan Pəhləvanın dövründə çiçəklənmişdi.

Tarix öz qoynunda Əcəminin həyatı haqda onun ölməz əsərlərindən başqa heç nə saxlamayıb. Görünür, dahi memar bunu qabaqcadan gördüyündən öz şah əsərinin-Mömünə Xatun türbəsi üzərində belə yazmışdı:

"Biz gedəriyik. Dünya əbədi qalandır. Biz gedəcəyik, dünya qalacaq. Biz ölərik — bu, bizdən xatirə qalar. İlahi, bəd nəzərdən uzaq elə."

Bəli, xatirə qaldı. Müsəlman şərqində yalnız bir neçə memarlıq ansamblı məşhurdur. Bunların içərisində Səmərqəndin, İsfahanın memarlıq ansambllarını, eləcə də Tac-Mahalı göstərmək olar. Güman ki, həmin ansambllarıın yaranmasından çox-çox qabaqlar dünyanın ən qədim şəhərlərindən olan Naxçıvanda (Bibliyadakı rəvayətlərə görə, bu şəhərin əsası Nuh peyğəmbər tərəfindən qoyulub) orta əsrlərin dahi memarı Əcəmi Naxçıvaninin layihəsi əsasında möhtəşəmlikdə bunlardan heç də geri qalmayan arxitektura kompleksi tikilmişdir. Nəhəng bir ərazidə İl-Dənizlərin Sarayı, Cümə məscidi, Xatirə abidələri, çox güman ki, mədrəsə, karvansara və digər hökumət tikililəri qurulmuşdu. Bütün bu məlum və ehtimal olunan tikililərdən bizim dövrümüzə yalnız iki məqbərə gəlib çatsa da Naxçıvanda saray ansamblının mövcudluğu XIII əsrdə anonim bir müəllif tərəfindən farsca yazılmış "Əcaib əd-dünya" adlı əsərdə də müəyyən dərəcədə təsdiq edilir. Həmin əsərdə bu sətirləri oxumaq olar:

"Naxçıvan Azərbaycanda yüksək bir yerdə salınmış və möhkəmləndirilmiş, əhalisi gur olan iri şəhərdir. Burada çoxlu saraylar, şəhərətrafı qalalar, malikanələr (köşk) və parad təyinatlı tikililər qurulmuşdur. Şəhərin yaxınlığında daşdan qalalar, qalanın içində isə mədrəsə və məscidlər tikilib. Qalanın içində həmçinin gözəl bir bulaq var. Deyilənə görə, dünyada bundan çox məskunlaşmış şəhər yoxdur. Bütün inşaat kirəcdən və bişmiş kərpicdən aparılırdı. Üç və dördmərtəbəli köşklərin əksər qismi əslində qalalardır. Şəhərin ətrafındakı kəndlər (savad) olduqca gözəldir, axar suları var. Çoxlu bağ-bağat salınıb, göz oxşayan çəmənliklər var. Araz çayı şəhərin içindən keçir… İl-Dənizin mübarək zamanında (Naxçıvan) tamamilə əzəmətli bir görkəm aldı. Burada şah iqamətgahı (dar-əl-mülk) və hökumət binaları (dövlətxana) tikildi…"

**II Müəllim:** *Yusif ibn Küseyir türbəsi*

O zamanın mənbələrinə əsaslansaq, Əcəmi dövründə Naxçıvanda 250 min nəfər əhali yaşayırdı. Xatırlanan meydandan dövrümüzə gəlib çıxmış tikililər arasında ən qədimi xalq arasında Atababa Günbəzi adlanan Yusif Küseyir oğlu türbəsidir. Türbənin məzar hissəsi yerin altındadır. Yerüstü qülləvari hissə piramida formalı səkkizguşəli çadır şəklində işlənmişdir. Məqbərənin çölə baxan tərəfi kərpic bloklarla hörülmüş naxışlarla bəzədilmişdir.

*Yusif Küseyir oğlu türbəsinin inşaat kitabəsi*

Abidənin giriş hissəsində kufi xətti ilə yazılıb:"Bu, şərəfli dinimizin məşhur rəisi, İslamın gözəlliyi, şeyxlər başçısı Hacı Yusif ibn Küseyrin məqbərəsidir. Şəvval ayı yeddinci, əllinci və beş yüzüncü il (557/1162-ci il)."Məqbərənin üzərində kufi xətti ilə Qurandan dekorativ ayələr yazılmışdır. Girişin sol tərəfində memarın adı həkk olunmuşdur: "Əcəmi ibn Əbubəkr Naxçıvani."

*Mömünə Xatun türbəsi*

Azərbaycanda daha gözəl və daha möhtəşəm bir məqbərə isə Mömünə Xatunun şərəfinə salınmış və xalq arasında Atabəy Gümbəzi kimi məşhur olan xatirə abidəsidir. Mömünə xatun Atabəy Şəmsəddin Eldənizin birinci arvadı idi və Azərbaycan Atabəylər dövlətinin yaranması, möhkəmləndirilməsi üçün çox böyük işlər görmüşdü. O,1175-ci ildə dünyasını dəyişir. Bundan az sonra Eldəniz özü də rəhmətə gedir və yalnız 1186-cı ildə başa çatmış məqbərənin tikintisini onların oğlu Cahan Pəhləvan davam etdirir. Bu məqbərə də yeraltı və yerüstü hissələrdən ibarətdir. Birinci qismə xatunun məzarı, ikinci hissəyə isə xatirə abidəsi daxildir. Məqbərə öz formasına görə kəsik onbucaqlını xatırladır. Giriş üçün nəzərdə tutulmuş fasadı çıxmaq şərti ilə qalan bucaqların hamısı eyni cür işlənmiş və naxışlarla bəzədilmişdir. Məqbərənin üzərində kufi xətti ilə Qurandan ayələr həkk olunmuş haşiyə yerləşdirilib. Təqribən bir metr hündürlüyündə olan bu yazı minalanmış kərpiclərlə işlənmişdir və məqbərənin bəzəyi sayılır. Hündürlüyünə və monumentallığına baxmayaraq, məqbərə çox zərif və dikdir. Bu da onun qadın şərəfinə ucaldıldığından xəbər verir.

Bu məqbərəyə baxanda istər-istəməz adamın yadına Hindistan arxitekturasının ölməz incisi Tac-Mahal düşür. Həmin kompleks də qadın — Mümtaz Mahalın (1648-ci il) şərəfinə, həm də Cahan adlı türk hakimi tərəfindən ucaldılmışdır. Möminə xatun məqbərəsi haqqında akademik V. M. Alpatovun "Ümumi incəsənət tarixi" külliyyatında deyilənlərə nəsə əlavə eləmək çox çətindir. O yazır:

"Bu cür inkişaf tapmış forma hissiyyatı, bu cür klassik kompozisiya bitkinliyi və kompozisiyanın gerçəkləşdirilməsindəki bu cür kamillik o dövrlərdə Orta Avropa arxitekturasında rast gəlinmir. Klassik şərq ədəbiyyatının ən gözəl nümunələrindən olan Firdovsinin (X-X1 əsrlər) "Şahnamə", Nizaminin (XII əsr) "Leyli və Məcnun" kimi ölməz poemalarında olduğu kimi, Naxçıvandakı bu məqbərə də bəşəri mahiyyəti ilə fərqlənir."

İslam dini canlıların heykəlini qoymağı qadağan etdiyindən Şərqdə yüksək qülləli məqbərələr Qərbi Avropadakı qəbirüstü abidələri əvəz edirdi. Bu tikililərin məzarlıq hissələri yerin altında olur, yerüstü hissəsi isə bəzən hətta 30 metrə qədər yüksələrək, öz gözəlliyi və ifadəliliyi ilə dəfn olunmuş şəxsin xatirəsini əbədiləşdirməyə xidmət edirdi. Böyük memar hər iki əsərində həmin qayəni yüksək sənətkarlıqla gerçəkləşdirə bilmişdi.

Bu meydanda yerləşən tikililərdən biri də hansısa möhtəşəm bir memarlıq abidəsinin qoşa minarəli piştağıdır. Həmin abidə XIX əsrdə dağıdılmış, onun şəkilləri və təsviri isə qalmışdır. Abidə dağıdılmamışdan onun üzərindəki "Memar Əcəmi ibn Əbubəkr Naxçıvaninin əsəridir" sözləri aydın oxunurdu.

Piştağ 1187-ci ildə, Mömünə Xatun türbəsindən bir il sonra tikilmişdir. Mütəxəssislər təsdiq edirlər ki, qoşa minarəli portal kompozisiyası ilk dəfə Əcəmi tərəfindən tətbiq edilmişdir. Sonralar müsəlman dünyasının bir çox ölkələrində bu kompozisiyaya tez-tez rast gəlinir.
Əcəminin xatırladığımız tikililərinin ümumi kompleksinə nəhəng bir Cümə məscidi (Cümə məscidi (Naxçıvan))də daxil idi. Bu məscidin təsviri fransız səyyahları Tavernye və Delafruanın qeydlərindəki şəkillərdə verilmişdir. XIX əsrin ortalarında V. Engelqart "Qafqaz" qəzetində bu məscid haqda yazırdı:
"Bu — yonulmuş daşlardan tikilmiş və tağları olan nəhəng bir binadır. İçəridə hələ də gözəl relyefli oymaların izləri qalmaqdadır. Məscidin bir hissəsi artıq dağılıb, o biri his-səsi isə dağılmaq üzrədir. Məsciddən 50 sajen aralıda hündürlüyü 20 sajenə çatan qoşa minarəli darvaza yerləşir. Darvaza da həmin kompleksə daxildir. Əvvəllər məscidlə darvazanın arasındakı yerdə müxtəlif tikililər olub, ancaq indi bunlar yoxdur və adama elə gəlir ki, darvaza bir qədər yaxındakı tənha qalaya aiddir."
Tamamilə mümkündür ki, həmin- boş qalmış yerdə adətən belə komplekslərə daxil olan mədrəsələr və ya karvansaralar da tikilibmiş. Üstəlik Bretanitskinin yazdıqına görə, atabəyin Naxçıvanda Mömінə xatun vəqfinə daxil olan bir mədrəsə tikdirdiyi qeyd edilmiş yarlıq da mövcuddur.
Maraqlıdır ki, zaman keçdikcə Əcəminin ustalıqı ilə bərabər, cəmiyyətdə tutduqu mövqe də artır. Bunu məlum abidələrdə onun adının yazılış forması da aydın köstərir. Yusif ibn Küseyrin məqbərəsində bu yazı o qədər namünasib şəkildədir ki, ilk tədqiqatçılar hətta bunu körə də bilməmişlər. Üstündən 20 il keçdikdən sonra Mömінə xatun məqbərəsində isə həmin yazı girişin üzərində və diqqəti cəlb edən bir tərzdə həkk olunmuşdur. Növbəti yazı isə monumental piştağın üzərindədir.
Əcəminin yaradıcılığı uzun əsrlər boyunca Azərbaycanın və dikər ölkələrin bir çox memarları üçün ilham və təqlid mənbəyi olmuşdur. Hətta Əcəmidən 300 il sonra yaşamış Böyük Türkiyə memarı Memar Sinanın əsərlərində də tədqiqatçılar dahi ustadın təsirini qeyd edirlər. Qoy çağdaş memarlar da Əcəminin devizini yaddan çıxarmasınlar: "Biz öləcəyik, bu əsərlərsə xatirə kimi qalacaq."
Azərbaycan ərazisində mağaraların sayı olduqca çoxdur. Böyük və Kiçik Qafqaz dağlarının ətəklərində, Talış dağlarında, Naxçıvan MR-da, Zəngilan, Kəlbəcər, Gədəbəy, Göygöl, Şamaxı və nəhayət Füzuli rayonu ərazisində aşkar edilmiş Azıx mağarası buna misal ola bilər. Belə mağaralarda aparılmış tədqiqatlar göstərir ki, burada yaşamış ibtidai insanlar 1,5 milyon il öncə, yaşayışlarını mağaralardakı şəraitə uyğunlaşdırmaq məcburiyyətində qalsalar da sonralar şüurun inkişafı və bəzi əmək və inşaat alətlərinin yaranması ilə əlaqədar olaraq onlar yaşadıqları təbii mağaraları öz yaşayış tərzlərinə uyğunlaşdırmağa çalışmışlar. Mağaranın ortasında yandırılmış ocaq tüstüsünü xaric etmək üçün tavandan deşik (baca) açılması, yaxud

müəyyən lazımi ləvazimatların saxlanması üçün mağaranın daxili divar səthində xüsusi oyuqların açılması buna əyani sübutdur.

**III Müəllim:** İbtidai insanların təbii mağaralar üzərində apardıqları belə yenidənqurma işləri sonrakı dövrlərdə süni mağaraların yaranması ilə nəticələnmişdir. Təbii mağaralar kimi bir neçə küyüldən ibarət olan süni mağaralar da yer səthindən xeyli hündür məsafədə dik qayalar və dağ döşündə düzəldilmişdir. Azərbaycan ərazisində süni mağaralara Böyük Qafqaz dağlarının cənub-şərq ətəklərində, Kiçik Qafqaz dağlarında, Qubadlı rayonunda Bərguşad, Həkəri çayları vadilərində, Şirvan regionunda Mərəzə, Sündi və Dərəkənd yaxınlığında, eləcə də cənub əyalətlərində qədim Manna və Midiya dövlətlərinə mənsub olan ərazilərində də təsadüf edilmişdir.

Daş hörgüsünün meydana çıxması nəticəsində yeni tipli qazma və yarımqazma binalar inşa edilməyə başladı. Öz başlanğıcını süni mağaralardan almış belə binalar uzun bir tarixi inkişaf prosesi keçmiş və memarlıq tarixində "Qaradan" adı ilə məşhurlaşmışdır. Tarixi məlumatlara görə Azərbaycanda qaradanlardan XX əsrliyin əvvəllərinə qədər istifadə edilmişdir.

**IV Müəllim:** *Müasir Azərbaycanın memarı*

Xalqımızın ən böyük, ən dəyərli xüsusiyyətlərindən biri övladlarının zəhmətinə, fədakarlığına yüksək qiymət verməsidir. Əsrlərlə nəsildən-nəslə ötürülən xalq qəhrəmanları haqqında məlumatlar, məhz Azərbaycan xalqının əzəmətli, mübariz, istedadlı, yaradıcı xalq olduğunu təsdiqləyir.

Xalqımızın hərtərəfli istedad sahibi olduğunu tarixi irsimizdən asanlıqla görə bilərik. Tarixi irsimizin əsasını təşkil edən bir çox amillərdən biri memarlığımızdır. Min illərlə memarlıq sənətinin Azərbaycanda formalaşmış möhtəşəm məktəbləri uzaq Şərqdən yaxın Qərbə, Şimaldan Cənuba kimi təkrarsız abidələr yaratmışdır ki, bu gün də həmin ölkələrin tarixi memarlıq irsinə daxil edilmiş və qorunub saxlanılmaqdadır. Ölkəmizin ərazisində qorunub saxlanılan minlərlə tarixi memarlıq abidəsi bizi çoxundan fərqləndirir. Şəmkirdə, Qəbələdə, Şamaxıda, Naxçıvanda və başqa bölgələrdə min illərlə tarixi olan şəhərlərin qalıqları arxeoloqlarımız tərəfindən aşkarlanmış, tədqiq edilmişdir. Etiraf edək ki, türkdilli xalqlar arasında bu kimi tarixi şəhərsalma mədəniyyətinə malik olan başqa xalq yoxdur.

Belə bir möhtəşəm memarlıq tarixi olan ölkədə 100 il bundan öncə, tariximizdə silinməz iz qoymuş, dünyaşöhrətli siyasətçi Heydər Əliyev dünyaya gəlmişdir.

Müasir Azərbaycanın memarı!

Gənc yaşlarından qəlbində memarlıq sənətinə yaranmış məhəbbət, ömrünün sonuna qədər onu müşayiət etmişdir. Peşəkar memar olmaq arzusu həyata keçməsə də, memarlıq sənətinə olan qayğısı və diqqəti, memarlara olan hərarətli münasibəti Heydər Əliyevin ömür boyu bu sənətə bağlılığını təmin etmişdir.

70-ci illəri xatırladaq. Azərbaycan Sovet Sosialist Respublikası, sovet xəzinəsinə verdiyi böyük töhfələrə baxmayaraq, ittifaq mərkəzində ucqar bir əyalət kimi qəbul olunurdu. Respublikaya rəhbərlik etdiyi andan Heydər Əliyev bu münasibəti kökündən dəyişdi. Bundan sonra mərkəz, Azərbaycanın SSRİ miqyasında nə dərəcədə əhəmiyyətli olduğunu anlamağa başladı və bu anlayışa xas münasibətlər yarandı.

Respublikanın bütün sahələrində böyük quruculuq işləri aparıldı: o cümlədən memarlıq və inşaat sahələrində. Onlarla möhtəşəm ictimai bina, yaşayış rayonu, güclü istehsalat müəssisəsi inşa olundu.

Bunların çoxunun inşası yüksək maliyyə dəyəri tələb etdiyindən, mərkəzi hökumətin, yəni SSRİ Nazirlər Sovetinin razılığı gərək idi. Bu razılığı hər respublikanın rəhbərləri ala bilməzdi. Heydər Əliyev alırdı. Çünki mərkəzi hökumətin ona olan inamı yüksək idi, fədakarlığı, düzgünlüyü, prinsipiallığı bəlli idi və yüksək qiymətləndirilirdi.

1970-ci illərdə Azərbaycanın mədəniyyətinə böyük diqqət yetirildi. Tarixi abidələrimizin bərpası, onlara böyük qayğı dövlət siyasəti səviyyəsinə qaldırıldı.

Yaxşı yadımdadır, o dövrdə qədim Tiflisin bərpası işləri başlanmışdı. Bakıda isə Heydər Əliyevin təşəbbüsü ilə İçərişəhərə qoruq statusu verilmişdi. Tiflisdə aparılan işlər haqda xəbər tutan Heydər Əliyev bir qrup memarın oraya gedib vəziyyətlə tanış olmaları qərarını verir. Həmin vaxtda Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin binası inşa olunurdu. Layihənin müəllifi tanınmış ustad Tahir Abdullayev idi. Amma Heydər Əliyevi layihənin bəzi məqamları məmnun etmirdi. O, milli memarlıq irsimizin fasadlarda daha geniş istifadəsini tələb edirdi.

Sovet ideologiyası milli xüsusiyyətlərin aradan qaldırılması istiqamətində siyasət aparsa da, Heydər Əliyev bu siyasətə zidd olan öz ideologiyasını həyata keçirirdi.

Hər hansı bir yeni inşa olunan binada Azərbaycanın milli memarlıq elementlərinin müasirləşdirilmiş formada tətbiq olunmasını tələb edirdi. Deyirdi:

- Binaya baxan həmin an görməli və etiraf etməlidir ki, bu, Azərbaycan memarlığıdır.

MK-nin binasının fasadlarının variantlarının hazırlanması bir neçə nəfərə tapşırıldı. Bir müddət keçəndən sonra təkliflərimi bəyənsə də, Heydər Əliyev Moskvaya getdi, Sov.İKP MK-nin Siyasi Bürosunun üzvü seçildi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi. Bununla da bina ilkin layihə üzrə tamamlandı.

Heydər Əliyevin sənətçilərimizə olan münasibəti hamıya bəllidir. Fikrət Əmirov, Niyazi, Rəşid Behbudov, Tahir Salahov və başqaları onun təşəbbüsü ilə SSRİ-nin ali mükafatı - Sosialist Əməyi Qəhrəmanı "Qızıl Ulduz"la təltif olunmuşdular. SSRİ məkanında bu yüksək təltifə layiq görülmüş yeganə memar azərbaycanlı Mikayıl Üseynovun olduğunu çoxları bilmir. Eyni zamanda SSR Xalq memarı fəxri adını

almış ilk dörd nəfərdən biri də Mikayıl Üseynov olmuşdur. Bu, Azərbaycan memarlığına Heydər Əliyevin yüksək münasibətinin əyani sübutu idi.
20 ildir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev xalqının yaradıcılıq, quruculuq bacarığına, həvəsinə arxalanaraq ölkədə ölçüyəgəlməz dərəcədə işlər görür. Şəhərlərimiz, qəsəbələrimiz gündən-günə inkişaf edir, onların memarlıq siması yeni, möhtəşəm bina və qurğularla zənginləşir.
Ölkəmizdə dünyanın bir çox inkişaf etmiş dövlətlərindən fərqli olaraq, tarixi irsin qorunub saxlanılması, bərpası dövlət siyasətinin ayrılmaz hissəsi olaraq, birbaşa Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqəti mərkəzindədir.
Bu gün Şərqi Zəngəzurda və Qarabağda aparılan böyükmiqyaslı işlər də xalqımızın mətinliyini, bacarığını göstərir.
30 il ərzində ərazilərimizi talan edən düşmənin gözü qarşısında yeni şəhərlər, qəsəbələr yaranır, abidələrimiz bərpa olunur.

*Tədbirdə iştirak edən məktəblilər də mövzu ilə əlaqədar məlumat verir.*

**I Şagird:** *Nağıl memarlığı*
Storybook Architecture (Nağıl memarlığı) - 20-ci əsrin əvvəllərində, xüsusilə 1920-1930-cu illərdə ABŞ-da yayılmış bir memarlıq üslubudur. Bu üslub, uşaqların nağıl kitablarındakı evlərə bənzəyən, xəyali və romantik dizaynları ilə tanınır. Storybook Architecture, ənənəvi Avropa memarlıq elementlərindən ilham alaraq, lakin onları eklektik və bəzən ekstravagant şəkildə birləşdirərək, unikal bir estetika yaradır. Bu üslub, həm yaşayış binalarında, həm də ictimai strukturlarda tətbiq olunmuşdur.

*Tarixi arxa plan*
Storybook Architecture, 1920-ci illərdə ABŞ-da, xüsusilə Kaliforniyada yaranmışdır. Bu dövrdə, Birinci Dünya Müharibəsindən sonra insanlar daha romantik və xəyali bir dünyaya qaçmaq istəyirdilər. Storybook Architecture, bu arzunu özündə əks etdirərək, nağıl kitablarındakı evləri həyata keçirən bir üslub kimi inkişaf etdi. Bu üslub, ənənəvi İngilis, Fransız və Alman kənd memarlığı elementlərindən ilham alsa da, onları daha fantastik və bəzəkli şəkildə təqdim edirdi.

*Storybook Architecture-in əsas xüsusiyyətləri*
Xəyali və nağılvari dizayn: Bu üslubda binalar, nağıl kitablarındakı evlərə bənzəyən, qeyri-adi və xəyali formalara malikdir. Mehrabi damlar, əyri xətlər və qeyri-simmetrik dizaynlar geniş istifadə olunur.

Təbii materiallar: Storybook Architecture-də ağac, daş və kərpic kimi təbii materiallar üstünlük verilir. Bu materiallar, binalara rustik və ənənəvi bir görünüş verir.
Dekorativ elementlər: Binalar, oyma detallar, boyalı pəncərələr, böyük bacalar və dekorativ divar rəsmləri ilə bəzədilir. Bu elementlər, binalara xüsusi bir estetika və romantik atmosfer verir.
Yaşıl məkanlar: Storybook Architecture evləri, adətən bağlar, çəmənliklər və yaşıl məkanlarla əhatə olunur. Bu, binaların nağılvari atmosferini daha da gücləndirir.
Kiçik pəncərələr və qapılar: Bəzi hallarda, kiçik və qeyri-adi formalı pəncərələr və qapılar istifadə olunur ki, bu da binaların nağıl dünyasına aid olması hissini yaradır.

*Storybook Architecture-in tətbiqi*

Storybook Architecture, əsasən yaşayış binalarında tətbiq olunsa da, bəzi ictimai strukturlarda da istifadə edilmişdir. Bu üslub, xüsusilə Kaliforniyanın Los-Anceles və San-Fransisko kimi şəhərlərində geniş yayılmışdır. Məşhur memarlar, Harry Oliver və William R. Yelland kimi şəxslər, bu üslubun inkişafında mühüm rol *oynamışdırlar.*

*Məşhur nümunələr*

The Witch's House, Beverly Hills (Kaliforniya): 1921-ci ildə tikilmiş bu ev, Storybook Architecture-in ən məşhur nümunələrindən biridir. Ev, nağıl kitablarındakı cadugər evlərinə bənzəyən dizaynı ilə tanınır.
The Hobbit House, Los Angeles (Kaliforniya): Bu ev, J.R.R. Tolkien'in "Hobbit" kitabındakı evlərə bənzəyən dizaynı ilə məşhurdur. Ev, 1940-cı illərdə tikilmişdir və hələ də öz orijinal görünüşünü qoruyur.
Spadena House, New York: "The Witch's House" kimi tanınan bu ev, 1920-ci illərdə tikilmişdir və nağıl kitablarındakı evlərə bənzəyən dizaynı ilə fərqlənir.

*Storybook Architecture-in təsiri*

Storybook Architecture, 20-ci əsrin əvvəllərində məşhur olsa da, sonradan digər memarlıq üslublarının yüksəlişi ilə populyarlığını itirdi. Lakin, bu üslubun təsiri, müasir memarlıqda hələ də hiss olunur. Xüsusilə, fantaziya və nağıl temalı layihələrdə Storybook Architecture elementləri geniş istifadə olunur.

2026-cı il “Şəhərsalma və Memarlıq İli” ilə əlaqədar olaraq kitabxanalarda keçirilən tədbirlərdən biri də **rəy sorğusudur.** Bunun üçün məktəblilər əvvəlcədən muzeylərə səyahət edib onlarla yaxından tanış olurlar. Kifayyət qədər bilgi əldə etmiş şagirdlər kitabxanaya gəlib tədbirdə iştirak edirlər. Əvvəlcə kitabxanaçı qonaqlar və

iştirakçıları salamladıqdan sonra mövzu haqqında qısa və dəyərli məlumatlar verir. Məlumatdan sonra suallar yazılı və test şəklində iştirakçılara təqdim olunur.

**Kitabxanaçı:**

*Memarlıq və şəhərsalma nədir?*

Uşaqlar, hər gün yaşadığımız evlər, oxuduğumuz məktəblər, gəzdiyimiz parklar və gördüyümüz körpülər təsadüfən yaranmır. Onların hamısı planlı şəkildə qurulur. Bu işlə məşğul olan sahələr memarlıq və şəhərsalma adlanır.

*Memarlıq nədir?*

Memarlıq binaların layihələndirilməsi və tikilməsi sənətidir.

Memar əvvəlcə kağız üzərində və ya kompüterdə bina layihəsi hazırlayır, sonra isə həmin layihə əsasında tikinti aparılır.

Məsələn, Heydər Əliyev Mərkəzi öz qeyri-adi forması ilə müasir memarlığın gözəl nümunəsidir.

*Tarixi memarlığa isə Qız Qalası və İçərişəhər daxildir.*

Memarlıq yalnız gözəllik deyil, həm də rahatlıq və təhlükəsizlik deməkdir. Bina həm möhkəm, həm də istifadə üçün əlverişli olmalıdır.

*Şəhərsalma nədir?*

Şəhərsalma şəhərlərin planlı şəkildə qurulması deməkdir. Şəhərsalma zamanı aşağıdakılar nəzərə alınır:

Evlər harada tikilməlidir?

Məktəb və xəstəxanalar hansı ərazidə yerləşməlidir?

Yollar və körpülər necə çəkilməlidir?

Park və istirahət zonaları harada olmalıdır?

Məsələn, Bakı şəhərində həm tarixi, həm də müasir tikililər bir arada yerləşir. Bu isə düzgün şəhərsalma planının nəticəsidir.

Niyə vacibdir?

İnsanların rahat yaşaması üçün

Təhlükəsiz və səliqəli mühit yaratmaq üçün

Təbiəti qorumaq üçün

Gözəl və abad şəhərlər qurmaq üçün

Kimlər bu işlə məşğul olur?
Memarlar – binaları layihələndirir
Şəhərsalma mütəxəssisləri – şəhərin ümumi planını hazırlayır
İnşaat mühəndisləri – tikintinin möhkəmliyini təmin edir.

***Rəy sorğusu aşağıdakılardan ibarətdir.***

**1. "Şəhərsalma və Memarlıq İli" nə deməkdir?**
Cavab: Bu, ölkədə şəhərlərin planlaşdırılması, tikintisi, abadlaşdırılması və memarlıq mədəniyyətinin inkişafına xüsusi diqqətin ayrıldığı bir ildir.
**2. Şəhərsalma anlayışı nəyi ifadə edir?**
Cavab: Şəhərsalma şəhərlərin və yaşayış məntəqələrinin planlı şəkildə qurulması, yolların, parkların, yaşayış binalarının və ictimai məkanların düzgün yerləşdirilməsi prosesidir.
**3. Memarlıq nədir?**
Cavab: Memarlıq binaların və qurğuların layihələndirilməsi və inşası sənətidir. O, həm funksional, həm də estetik dəyərləri birləşdirir.
**4. Azərbaycanın hansı şəhəri müasir memarlıq nümunələri ilə seçilir?**
Cavab: Bakı şəhəri həm tarixi, həm də müasir memarlıq nümunələri ilə seçilir.
**5. Tarixi memarlıq abidələrinə nümunə göstərin.**
Cavab: İçərişəhər və Qız Qalası Azərbaycanın mühüm tarixi memarlıq **abidələrindəndir.**
**6. Müasir memarlıq nümunəsinə hansı tikilini misal göstərmək olar?**
Cavab: Heydər Əliyev Mərkəzi müasir memarlığın ən gözəl nümunələrindən biridir.
**7. Şəhərsalma niyə vacibdir?**
Cavab: Çünki düzgün planlaşdırılmış şəhərlər insanlara rahat, təhlükəsiz və sağlam mühitdə yaşamaq imkanı yaradır.
**8. Memar kimdir?**
Cavab: Memar binaların layihəsini hazırlayan, onların görünüşünü və funksionallığını planlaşdıran mütəxəssisdir.
**9. Yaşıl zonalar şəhər həyatında hansı rolu oynayır?**
Cavab: Parklar və yaşıllıqlar havanı təmizləyir, insanların istirahəti və sağlamlığı üçün əlverişli şərait yaradır.
**10. Məktəblilər "Şəhərsalma və Memarlıq İli" nə necə töhfə verə bilərlər?**
Cavab: Şagirdlər şəhərlərin maketlərini hazırlaya, ekoloji layihələrdə iştirak edə, memarlıq mövzusunda rəsmlər çəkə və maarifləndirici tədbirlərdə fəal ola bilərlər.

**Ədəbiyyat siyahısı**

**Kitablarda**


1. Armstronq K. Mifin qısa tarixi : İngilis dilindən tərcümə. - Bakı : TEAS PRESS Nəşriyyat evi, 2017. - 116 s.

2. Azərbaycan xalçaları : elmi- publisistik jurnal . Cild 9 № 28/29 = Azerbaijani carpets = Азербайджанские ковры. - Bakı : Azər-İlmə, 2019. - 200 s.

3. Əhmədov E. Şuşa-Azərbaycanın tarixi və strateji əhəmiyyətli mədəniyyət paytaxtı . - Bakı : Zərdabi Nəşr, 2022. - 472 s.

4. Fətullayev - Fiqarov, Şamil Seyfulla o. Abşeron memarlığı; Azərbaycan Respublikası Memarlar İttifaqı. - Bakı : Şərq-Qərb, 2013. - 476 s

5. Fətullayev - Fiqarov, Şamil Seyfulla o. Bakıda şəhərsalma XIX əsr və XX əsrin əvvəllərində = Baku Urban Planning XIX - early XX centuries / Ş. S. Fətullayev - Fiqarov ; lay.rəhb. E. Ə. Qasımzadə ; Azərbaycan Respublikasının Memarlar İttifaqı, Union of Architects of Azerbaijan Republic. - Bakı : Şərq-Qərb, 2013. - 340 s.

6. Fətullayev - Fiqarov, Şamil Seyfulla o. Bakıda şəhərsalma XIX əsr və XX əsrin əvvəllərində = Градостроительство Баку XIX - начала XX веков. - Bakı : Şərq-Qərb, 2013. - 352 s.

7. Fətullayev - Fiqarov Şamil Seyfulla oğlu. Qacarlar dövründə İranda şəhərsalma və memarlığın inkişafı ; Azərbaycan Respublikasının Memarlar İttifaqı. - Bakı : Şərq-Qərb, 2013. - 356 s.

8. Fətullayev - Fiqarov, Şamil Seyfulla oğlu. XIX əsr - XX əsrin əvvəllərində Azərbaycanda şəhərsalma və memarlıq ; Azərbaycan Respublikasının Memarlar İttifaqı. - Bakı : Şərq-Qərb, 2013. - 480 s.

9. Memar : Elmi, analitik-informasiya jurnalı. №20 (İyul) 2018-ci il. - Bakı : Şərq-Qərb, 2018. - 200 s

10. Memar : Elmi, analitik-informasiya jurnalı. №16 (İyun) 2017-ci il. - Bakı : Şərq-Qərb, 2017. - 200 s.

11. Memar : Elmi, analitik-informasiya jurnalı. №19 (Aprel) 2018-ci il. - Bakı : Şərq-Qərb, 2018. - 200 s.

12. Məmmədova G. Orta əsrlər memarlığı (VIII - XIV əsrlər) = Medieval architecture (VIII - XIV); Azərbaycan Respublikasının Memarlar İttifaqı, Union of Architects of Azerbaijan Republic.-II cild. - Bakı : Şərq-Qərb, 2013. - 316 s.

13. Məmmədova G.Orta əsrlər memarlığı (VIII - XIV əsrlər) = Архитектура Средних Веков(VIII - XIV в.в.) II cild. - Bakı : Şərq-Qərb, 2013. - 316 s.

14. Nağıyev N. Azərbaycan Respublikasının müasir dövr memarlıq tarixi; tərc.ed. AVRASİYA tərcümə mərkəzi ; Azərbaycan Respublikasının Memarlar İttifaqı, Союз Архитекторов Азербайджанской Республики. Bakı : Şərq-Qərb, 2013. - 352 s.

15. Nağıyev N. Azərbaycan Respublikasının müasir dövr memarlıq tarixi:V cild = Modern architectural period of Azerbaijan Republic . - Bakı : Şərq-Qərb, 2013. - 344 s. - (Azərbaycan memarlıq tarixi = History of Azerbaijan Architecture). - Azərbaycan və ingilis dillərində. - Biblioqr.: s. 338 – 340 s.

16. Novruzov N. Dünya duracaq yer deyil. - Bakı : Adiloğlu, 2010. - 176 s. :

17. Rəsulova S. Daş ilməli şəhərim : İçərişəhər mətbuatda ; Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi. - I cild : Ensiklopedik toplu. - Bakı : Aspoliqraf, 2022. - 352 s.

18. Şuşasız...22 il / Şuşa rayon İcra Hakimiyyəti. - Bakı - 2012. - 24 s.

**Dövri mətbuat**

1. Abdullayev M. Şəhər günün mübarək, Laçın!. // Yeni Azərbaycan. - 2024. - 24 avqust. - № 153. - S. 8.

2. Azadi S. Şuşa: Dünyanı heyrətləndirən qəhrəman şəhər // İki sahil. - 2024. - 7 may. - № 79. - S. 5.

3. Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (22 dekabr 2025-ci il). - // Azərbaycan : qəzet. - 2025. - 23 dekabr. - № 269. - S. 1.

4. Bağırlı M. Xalqımızın şəhərsalma və memarlıq sahəsində tarixi təcrübəsi : Şəhərsalma və Memarlıq ili - 2026 // Xalq qəzeti. - 2025. - 25 dekabr. - № 271. - S. 17.

5. Bağırlı M. Şəhərsalma və Memarlıq ili Azərbaycana yüksəliş və gözəllik gətirəcək // Xalq qəzeti. - 2025. - 24 dekabr. - № 270. - S. 18.

6. Bayramova Z. Azadlığa qovuşan Ağdamın Şəhər Günü // Səs. - 2024. - 20 noyabr. - № 212. - S. . 5.

7. Bayramova Z. Azadlığa qovuşan Qubadlının Şəhər Günü. // Səs. - 2024. - 25 oktyabr. - № 197. - S. 4.

8. Binyatoğlu V. Tərəqqi və yüksəlişin davamı - Şəhərsalma və Memarlıq ili : Şəhərsalma və Memarlıq ili - 2026 // Xalq qəzeti. - 2025. - 23 dekabr. - № 269. - S. 13.

9. Əliyeva Z. Azərbaycan memarlığı: dünənin və bu günün sabaha daşınan daş yaddaşı : 2026-cı il "Şəhərsalma və Memarlıq İli"dir // Azərbaycan : qəzet. - 2025. - 26 dekabr. - № 272. - S. 14.

10. Ələddinqızı Nəzakət. 2026-cı il - Şəhərsalma və Memarlıq ili . - Текст : непосредственный // Səs. - 2025. - 25 dekabr. - № 238. - S. 6.

11. Feyizli M. Şəhər günün mübarək, Füzuli! . - // Yeni Azərbaycan. - 2024. - 17 oktyabr. - № 191. - S. 3.

12. Qarayeva S. Şirvan Milli Parkı: günbəgün canlanan və zənginləşən mənzərə // 525-ci qəzet. - 2025. - 25 noyabr. - № 214. - S. 15.

13. Qurbanqızı Z. Ağ şəhər - Yaşıl Ada // Respublika. - 2024. - 7 iyul. - № 140. - S. 11.

14. Qədim şəhər - Şamaxı. – // Savalan. - 2024. - 20-26 avqust. - № 31. - S. 4.

15. Məhəbbətoğlu Q. Zəngin və çoxşaxəli memarlıq ənənələrinə malik ölkə : 2026-cı il "Şəhərsalma və Memarlıq İli"dir: непосредственный // İki sahil. - 2025. - 26 dekabr. - № 237. - S. 6.

16. Məmmədova M. Şəhər günü - Qürur günü... // Səs. - 2024. - 1 avqust. - № 136. - S. 8-9.

17. Nəcəfxanlı Ə. Arzulardan boy atan şəhər // Xalq qəzeti. - 2024. - 23 noyabr. - № 258. - S. 14.

18. Nəcəfxanlı Ə. Xəzər sahilində sabahlara boylanan şəhər : Sumqayıt - 75 // Xalq qəzeti. - 2024. - 14 avqust. - № 172. - S. 9.

19. Nərimanoğlu M. Açıq dənizdə möcüzələr adası, əfsanəvi şəhər : Neft Daşları – 75 // Respublika. - 2024. - 7 noyabr. - № 246. - S. 7.

20. Pərvanə Tariximizə, mədəniyyətimizə və milli kimliyimizə bağlılığın təzahürü: Şəhərsalma və Memarlıq ili // 525-ci qəzet. - 2025. - 25 dekabr. - № 236. - S. 5.

21. Şəhərsalma və Memarlıq ili ölkəmizin şəhərsalma və memarlıq ənənələrinin təbliğində mühüm rol oynayacaq : Şəhərsalma və Memarlıq ili - 2026. // İki sahil. - 2025. - 23 dekabr. - № 234. - S. 5.

22. Zaman E. 20 Noyabr - Ağdam Şəhər Gününün qürurverici anlarını yaşamaq çox gözəl hissdir // İki sahil. - 2024. - 17 noyabr. - № 210. - S. 7.